RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 114 (9569) 1 iyun 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# İlham Əliyevə qlobal dəstək artır



## Azərbaycan Prezidentinin COP29-la bağlı təklif və təşəbbüsləri təqdir edilir

COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir, ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Bu günədək ölkəmizdə bir çox tədbir keçirilsə də, COP29 onlarla müqayisəyə gəlmir. Çünki COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın diqqət mərkəzinə çevriləcək.

COP29 konfransına evsahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Prezidentin sərəncamı ilə sammitin keçirilməsi ilə əlaqədar təşkilat komitəsi də yaradılıb. Fevralın 22-də isə bu sənədə dəyişiklik edilməsi ilə bağlı yeni sərəncam imzalanıb. Sənədə əsasən təşkilat komitəsinin tərkibi bir qədər də genişləndirilib.

Əlbəttə ki, COP-29-la bağlı Azərbaycandan böyük gözləntilər var, həm hazırlıq prosesinin, həm tədbirin özünün yüksək səviyyədə təşkili üçün cəmiyyətin müxtəlif seqmentlərinin səfərbər olunması zəruri idi. Bu da təşkilat komitəsinin tərkibinin bir qədər də genişləndirilməsini şərtləndirirdi. Sərəncama nəzər yetirdikdə aydın şəkildə görünür ki, təşkilat komitəsində gender balansı tam təmin olunub ki, bu da Prezidentin qadınların cəmiyyətdəki roluna olan diqqətinin, etimadının və hörmətinin göstəricisidir.

Ümumiyyətlə isə dünyada bu sahədə vətəndaş cəmiyyəti çox aktivdir. Ona görə təşkilat komitəsinə vətəndaş cəmiyyətinin nümayəndələri də daxil edilib, bu işə onlar da töhfə verə bilsinlər. COP-29-da müzakirəyə çıxarılacaq müasir çağırışlar, innovasiya məsələlərinin geniş müzakirə olunacağı nəzərə alınaraq, təşkilat komitəsində iqtisadiyyat, innovasiya sahəsində çalışan şəxslər də təmsil olunurlar.

Göründüyü kimi, Azəbraycan bu beynəlxalq sammitə yüksək səviyyədə evsahibliyi etmək üçün bütün imkanlarını səfərbər edib. Buna beynəlxalq birlik də şahidlik edir və İlham Əliyevin bu istiqamətdə atdığı bütün addımlar təqdir olunur. Bunu 28 May - Müstəqillik Günü ilə bağlı Prezidentə ünvanlanan təbrik məktublarından da görmək mümkündür.

→ 4





# Onlar artıq köçkün uşaqlar deyillər

O ağrılı-acılı günlər hər birimizin qəlbində dərin yaralar açıb qaysaq bağlasa da, bir daha heç zaman sağalmayacaq...

O qəm-kədərli xatirələr heç zaman yaddaşımızdan silinməyəcək, unutmayacağıq o günləri...

Bilirsinizmi, keçmiş məcburi köçkün uşaqların yaşadığı bu dərd-qəmə, mənəvi məhrumiyyətlərə məlhəm olan, bizə təsəlli verən nədir?!

Qarabağda, Şərqi Zəngəzurda yeni doğulan azərbaycanlı körpələrin hayqırışları...

Valideynləri ilə birgə ata yurdlarına qayıdan keçmiş məcburi köçkün uşaqların azad torpaqlara səfər edən qalib Lider İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın qarşısına sevinclə qaçmalarına şahidlik etməyimiz...

Bax, doğma od-ocaqlarında xoşbəxt yaşama başlayan həmin uşaqların sevincində biz "müharibə", "köçkün" uşaqlarının da kədəri itir...

Bizim itirilmiş uşaqlığımız Qarabağda, Şərqi Zəngəzurda qaçan, oynayan, gülüb şənlənən balaların timsalında yenidən yaşanır, başlanğıcına qayıdır...

Biz də o uşaqlara qoşuluruq...

→ 5

# Kanakların müstəqillik arzusu

## Yeni Kaledoniyada baş verən iğtişaşlar Makronun qərəzli və inadkar siyasi manevrlərinin nəticəsidir

Fransa Prezidenti Yeni Kaledoniyanın yerli əhalisi olan kanakların müstəqillik elan etmək cəhdlərinin qarşısını almaq məqsədi güdən yeni seçki qanunu təqdim etmək istəyir. Lakin bu, əks effekt verib və Numea fransız xüsusi təyinatlıları, zirehli texnika və jandarmlarla dolu olmasına baxmayaraq, bu gün də davam edən xalq üsyanına səbəb olub.

Fransa ən böyük neokolonial güc olaraq qalır - o, Yeni Kaledoniya kimi, Reyunyon adaları, Uollis və Futuna adaları, Martinik və Qvadelupa, Klipperton və Karib dənizinin elit kurortları olan Sen-Bartelemi və Sen-Martinə sahibdir. Paris Cənubi Amerikada Fransız Qvianasına, Atlantikada Sen-Pyer və Mikelon adalarına nəzarət edir. Lakin bu da tam siyahı deyil...

Fransada narahatdırlar ki, Yeni Kaledoniyadan sonra Qvadelupa və digər problemli ərazilərdə də etirazlar başlayacaq.

→ 9

# Kolonializm tarixinin qanlı cinayətlərinin çoxu Fransa tərəfindən törədilib

Azərbaycan 30 ilə yaxın müddətdə işğalla, separatizmlə, eyni zamanda dünya birliyinin ədalətsiz mövqeyi ilə üzləşmiş bir dövlət olaraq xalqların əzilməsinə, insanların haqlarının tapdanmasına, azadlıq mücadilələrinin boğulmasına qarşı etiraz səsini qaldırıb. Bakı Təşəbbüs Qrupunun Fransa hakimiyyəti tərəfindən Yeni Kaledoniyada kanakların həbs olunması və mülki şəxslərə qarşı zorakılığa dair yaydığı bəyanatda Fransa hakimiyyəti tərəfindən həyata keçirilən son həbslər və komendant saatının tətbiqindən, təhlükəsizlik qüvvələrinin kanak xalqına qarşı törətdiyi zorakılıqlardan dərin narahatlıq ifadə olunub. Bəyanatda həmçinin Fransa Senatı və Milli Assambleyası Yeni Kaledoniyada qanunsuz konstitusiya dəyişikliklərini dayandırmağa çağırılıb. Adada yaşayan kanak xalqı ilə həmrəylik ifadə olunub.

→ 9

# Laçın şəhərinə yeni köç



Qarabağda və Şərqi Zəngəzurda yeni infrastrukturların yaradılması, investorların cəlb edilməsi və digər mühüm amillər burada dayanıqlı məskunlaşmanın təmin olunması üçün böyük əhəmiyyət kəsb edir. Bu istiqamətdə həyata keçirilən layihələr sistemli xarakter daşıyır. Bunun nəticəsidir ki, artıq 1955 ailə - 7612 nəfər əzəli məskənlərinə qayıdıblar. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 513 ailə (1906 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 105 ailə (406 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində məskunlaşıb.

→ 8

# Bakı Enerji Həftəsi bizi COP29-a bir addım da yaxınlaşdıracaq

## Bu tədbirin proqramında ekologiya əsas mövzulardandır

2024-cü ilin Bakı Enerji Həftəsi ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 ərəfəsində keçiriləcək. Prezident İlham Əliyevin sərəncamı ilə bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu əlamətdar hadisələrin hər biri Bakı Enerji Həftəsinin tədbirlər proqramında öz əksini tapacaq. Artıq 30 ildir Bakıda Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi keçirilir. Son dövrdə bununla yanaşı, eyniadlı forum və energetika sərgisi də təşkil olunurdu. İndi bu üç tədbir Bakı Enerji Həftəsində birləşdirilir.

Azərbaycanın bu və digər beynəlxalq işgüzar tədbirlərin təşkil edildiyi mərkəz olduğu artıq hər kəsə yaxşı məlumdur. Ölkəmiz bunun üçün həm geniş infrastruktura, həm də zəngin təşkilatçılıq təcrübəsinə malikdir. COP29 kimi mötəbər bir tədbirin keçirilməsinin Azərbaycana həvalə edilməsi də məhz ölkəmizin dünyada beynəlxalq və genişmiqyaslı tədbirlərin uğurlu təşkilatçısı statusunu bir daha təsdiqləyir. Belə genişmiqyaslı hadisə ərəfəsində enerji sektoru nümayəndələrini bir araya gətirən Bakı Enerji Həftəsi Azərbaycanın enerji sektorundakı rolunu və dünya enerji təhlükəsizliyinə verdiyi töhfəni də bir daha vurğulayacaq.



→ 7

# Donald Tramp bütün ittihamlar üzrə təqsirli bilinib

Donald Tramp 2016-cı il prezident seçkiləri ərəfəsində verdiyi rüşvəti seçicilərdən gizlətmək üçün maliyyə hesabatlarını saxtalaşdırmaqda ittiham olunur. Xatırladaq ki, cinayət işi ilə bağlı dinləmələr aprelin ortalarında başlayıb.

Yekun cəza iyulun 11-i keçiriləcək xüsusi iclasda hakim Xuan Merçan tərəfindən veriləcək.

Beləliklə, iclas iyulun 15-18-də Viskonsin ştatının Miluoki şəhərində keçiriləcək Respublikaçıların Milli Qurultayına dörd gün qalmış baş tutacaq. Orada Tramp Respublikaçılar Partiyasından prezidentliyə namizəd kimi rəsmən təsdiqlənməlidir.

ABŞ-nin keçmiş prezidentinə qarşı istintaqa səbəb 2018-ci ilin yanvarında "The Wall Street Journal" qəzetində işıq üzü görmüş məqalə olub. Yazıda bildirildiyinə görə, respublikaçı namizəd 2016-cı ildə prezident seçkilərində qalib gəlməzdən bir ay əvvəl onun vəkili Maykl Koen aktrisa Stormi Denielsə təxminən 10 il əvvəl Trampla münasibətləri barədə məlumat yaymaması üçün 130 min dollar ödəyib.

Lakin Tramp həbs olunsa belə bu, onun prezident seçkilərində iştirakına mane olmayacaq. "Fox News" telekanalı xəbər verir ki, ABŞ Konstitusiyasında prezidentliyə namizədlər üçün kriminal faktlara görə məhdudiyyətlər qoyulmadığından Donald Tramp məhkəmənin qərarından asılı olmayaraq, seçki kampaniyasını keçirə bilər.

→ 12

# Ş.B.Alxasovun Qusar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Şair Balaşərif oğlu Alxasov Qusar Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 may 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 291** **QƏRAR** **Bakı şəhəri, 30 may 2024-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117 (Cild I); 2024, № 2, maddə 229; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 15 aprel tarixli 208 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı" aşağıdakı redaksiyada verilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Azərbaycanın Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Sizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın Müstəqillik Günü münasibətilə Sizə yunan xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırır, Azərbaycan xalqına firavanlıq və tərəqqi arzulayıram.

BMT Nizamnaməsinin prinsiplərinin müdafiəsinə və beynəlxalq hüquqa hörmətə əsaslanaraq ölkələrimiz arasında qarşılıqlı fayda naminə əməkdaşlığın və dialoqun genişlənəcəyinə ümid edirəm.

Zati-aliləri, ölkənizin milli bayramı münasibətilə ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Katerina SAKELLAROPULU,***
***Yunanıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Əssəlamu aleykum və rəhmətullahi və bərəkətuhu!

Hörmətli cənab Prezident!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Biz dövlətlərimiz arasındakı dostluq münasibətlərini yüksək qiymətləndirir və bu münasibətləri həm ikitərəfli əsasda, həm də beynəlxalq forumlarda daha da inkişaf etdirmək imkanlarını alqışlayırıq.

Mən həmçinin Sizə və hökumətinizə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi etməklə bağlı bütün hazırlıqlarınızda uğurlar arzulayıram.

Allah-Taaladan zati-alinizə möhkəm cansağlığı və səadət, Azərbaycan xalqına isə sülh və rifah diləyirəm.

Vəssəlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

***Hacı Həssənal BOLKIAH,***
***Bruneyin Sultanı***

❖ ❖ ❖

Zati-aliləri!

Əlamətdar bayram - ölkənizin Müstəqillik Günü münasibətilə Şri-Lanka hökuməti adından və şəxsən öz adımdan zati-alinizi, Azərbaycan hökumətini və xalqını səmimi-qəlbdən təbrik edirəm.

Şri-Lanka ilə Azərbaycan arasında xoş məram və qarşılıqlı anlaşmaya əsaslanan sıx və mehriban münasibətlər mövcuddur. Əminəm ki, bu əlaqələr xalqlarımızın qarşılıqlı rifahı naminə növbəti illərdə daha da möhkəmlənəcək və genişlənəcəkdir.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm. Sizə cansağlığı, xoşbəxtlik, firavanlıq, Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

*Hörmətlə,*

***Ranil VİKRAMASİNQHE,***
***Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Zati-alinizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan Respublikasının hökumətinə və xalqına tərəqqi və firavanlıq diləyirəm.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Məhəmməd bin Rəşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın Əmiri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycanın Müstəqillik Günü münasibətilə zati-alinizi səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm.

Zati-alinizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Mansur bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş nazirin müavini, Prezident işləri naziri***

# Azərbaycanla Türkiyə arasında hərbi sahədə əməkdaşlığın inkişafı müzakirə olunub

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanda rəsmi səfərdə olan Türkiyə Silahlı Qüvvələrinin Kəşfiyyat Baş İdarəsinin rəisi general-polkovnik İsmail Günaydının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müdafiə naziri qonaqları ölkəmizdə görməkdən məmnunluğunu bildirib. Dövlət başçılarımızın səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyini xüsusi vurğulayıb.

Mayın 29-30-da Türkiyənin milli müdafiə naziri Yaşar Gülerin dəvəti ilə qardaş ölkəyə işgüzar səfərindən məmnunluq ifadə edən general-polkovnik Z.Həsənov Türkiyədə keçirilən "EFES-2024" çoxmillətli təliminin təşkilatçılığını, eləcə də hərbi qulluqçuların peşəkarlığını yüksək qiymətləndirib.

General-polkovnik İ.Günaydın isə Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əlaqələrin qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığını qeyd edib.



Görüşdə hərbi, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası çərçivəsində həyata keçirilən tədbirlərin əhəmiyyəti qeyd edilib.

Sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın cari vəziyyətindən məmnunluq ifadə olunub. Hər iki qardaş ölkənin qarşılıqlı əməkdaşlığının genişləndirilməsi baxımından belə görüşlərin mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Latviya arasında Strateji Dialoqun üçüncü iclası olub

**Mayın 30-da Riqa şəhərində Azərbaycan ilə Latviya arasında Strateji Dialoqun üçüncü iclası keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, iclasda Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Latviya nümayəndə heyətinə isə Xarici İşlər Nazirliyi dövlət katibinin müavini - siyasi direktor Anjeys Vilumsons rəhbərlik ediblər.

İclasda iki ölkə arasında ənənəvi dostluğa və qarşılıqlı etimada əsaslanan strateji tərəfdaşlıq və onun gücləndirilməsi imkanları, o cümlədən siyasi, iqtisadi, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Yüksəksəviyyəli qarşılıqlı səfərlərin davam etdirilməsinin, Strateji Dialoqun və Hökumətlərarası Komissiyanın növbəti iclaslarının keçirilməsinin əhəmiyyəti vurğulanıb.

Beynəlxalq gündəlikdə dayanan qarşılıqlı maraq kəsb edən məsələlər, çoxtərəfli formatlarda əməkdaşlığın genişləndirilməsi mövzuları da müzakirələrin diqqət mərkəzində olub.

Cari ilin noyabrında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq və görüləcək işlərlə bağlı qarşı tərəf məlumatlandırılıb.

İclasda həmçinin regional vəziyyət müzakirə olunub. Qarşı tərəfə Azərbaycanın bölgədə davamlı sülhün bərqərar olunması istiqamətində atdığı addımlar barədə məlumat verilib. Habelə işğaldan azad edilmiş ərazilərimizdə mina problemi, orada həyata keçirilən bərpa-quruculuq işləri, bu xüsusda Latviya ilə əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Səfər zamanı F.Rzayev həmçinin Latviyanın digər rəsmi şəxsləri ilə görüşüb, eləcə də beyin mərkəzlərinin nümayəndələri ilə keçirilən tədbirdə çıxış edib.

# Azərbaycanla Pakistanın hərbi sahədə əməkdaşlığının perspektivləri müzakirə edilib

**Mayın 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Pakistana rəsmi səfəri çərçivəsində bu ölkənin Silahlı Qüvvələrinin Quru Qoşunlarının komandanı, baş qərargah rəisi Asim Munir ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş əsnasında iki ölkə arasında müdafiə və hərbi sahədə əməkdaşlığın perspektivləri, habelə müdafiə sənayesi sahəsində iki ölkənin ixtisaslaşmış qurumları arasında əməkdaşlıq məsələləri müzakirə edilib.

Ceyhun Bayramov Azərbaycan və qardaş Pakistan arasında hərbi-texniki sahədə əməkdaşlıq üçün qarşılıqlı səfərlərin və sıx təmasların vacibliyini vurğulayıb.

İki ölkənin Silahlı Qüvvələri arasında qarşılıqlı fəaliyyətin səmərəliliyinin artırılması, habelə müvafiq qoşun növləri arasında təcrübə mübadiləsinin həyata keçirilməsi üçün ikitərəfli, habelə Azərbaycan-Türkiyə-Pakistan formatında üçtərəfli hərbi təlimlərin əhəmiyyəti qeyd edilib.

Nazir həmsöhbətini həmçinin Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyi və normallaşma prosesi, habelə Azərbaycanın 4 kəndinin qaytarılması və sərhədin müəyyən hissəsinin delimitasiyası prosesində əldə edilən son razılaşmalar barədə məlumatlandırıb.

Görüş zamanı digər qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Daxili işlər naziri Yardımlı rayonunda vətəndaş qəbulu və sıra baxışı keçirib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 30-da və 31-də Yardımlı Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Yardımlı rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Yardımlı, Astara, Lerik, Masallı, Lənkəran şəhər və rayonlarından qəbula gələn 264 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib.

21 Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 92 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# ADA Universitetinin və XİN-in birgə təşkilatçılığı ilə keçirilən bu ilin ilk "Xarici Siyasət Proqramı" yekunlaşıb

**ADA Universitetinin və Xarici İşlər Nazirliyinin (XİN) birgə təşkilatçılığı ilə keçirilən, cari il üçün nəzərdə tutulmuş ilk "Xarici Siyasət Proqramı" başa çatıb.**



AZƏRTAC xəbər verir ki, proqramda ortarütbəli diplomatlar, birinci, ikinci katiblər və şöbə müdirlərindən ibarət 19 XİN əməkdaşı iştirak edib.

Proqramın həm nəzəri, həm də praktiki bacarıqların qazanılmasına yönəlmiş təlimləri çərçivəsində iştirakçılar 10 bilavasitə bilik əsaslı və 5 praktika əsaslı sessiyalarda iştirak ediblər.

Bilik əsaslı sessiyalarda rəqəmsal, iqtisadi, ictimai və mədəni diplomatiya, enerji və ətraf mühit diplomatiyası kimi mövzulara toxunulub. Həmçinin beynəlxalq humanitar hüquq, insan hüquqları, geosiyasət, müasir qlobal iqtisadi trendlər və diplomatik protokol kimi mövzular da sessiyalar zamanı əhatə olunub.

Praktika əsaslı sessiyalarda isə diplomatik danışıqların aparılması, siyasi analiz, ictimaiyyət qarşısında çıxış, tədbir və layihələrin idarə edilməsi mövzuları tədris edilib.

Proqramın bu gün baş tutan bağlanış mərasimində ADA Universitetinin Dövlət, xarici və tələbə işləri üzrə prorektoru Fariz İsmayılzadə və onun müşaviri Aygün Hacıyeva iştirakçılara sertifikatlar təqdim edib, onlara şərəfli peşələrində və diplomatik fəaliyyətlərində uğurlar arzulayıblar.

Qeyd edək ki, proqram çərçivəsində əhatə edilən mövzular ADA Universitetinin professor-müəllim heyəti, habelə, millət vəkilləri, Xarici İşlər Nazirliyinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Energetika Nazirliyinin, eləcə də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin yüksək səlahiyyətli rəsmiləri və ölkəmizin İrandakı səfiri, beyin mərkəzlərinin və ictimai qurumların nümayəndələri tərəfindən tədris edilib.

Çıxışçılar iştirakçıları regiondakı vəziyyət, xüsusilə də Qarabağın işğaldan azad olunması ilə regionun geosiyasi görünüşü, eləcə də dünyada gedən qlobal proseslər fonunda özünü büruzə verən çağırışlar barədə məlumatlandırıblar.

# Naxçıvan Ali Məclisinin yaz sessiyası başa çatıb

**Mayın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının sonuncu plenar iclası keçirilib.**

İclasın gündəliyinə "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş) və "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (üçüncü oxunuş), Naxçıvan Muxtar Respublikası Baş nazirinin Nazirlər Kabinetinə üzvlüyə dair təqdimatlarına baxılması və İntizam komissiyasının məlumatı daxil edilib.

Ali Məclisin sədr müavini Anar İbrahimov gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, qanun layihəsi 24 may 2024-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin tələblərinə uyğun olaraq ikinci oxunuşda müzakirə edilib. Məsələ ilə bağlı Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli məlumat verib, komitənin rəyini diqqətə çatdırıb. "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Qanun səsə qoyularaq qəbul olunub.



Üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikası Qanunun layihəsi barədə Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri İsa İsayev məlumat verib, komitənin rəyini diqqətə çatdırıb. Məsələ səsə qoyularaq qəbul olunub.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin Nazirlər Kabinetinə üzvlüyə dair təqdimatlarına baxılması ilə bağlı Ali Məclisin sədr müavini bildirib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin təsdiqi Ali Məclisin həll etdiyi məsələlərdəndir. Naxçıvan Muxtar Respublikasının səhiyyə və təhsil nazirləri vəzifələrinə namizədlər barədə muxtar respublika Baş nazirinin 2024-cü il 21 may tarixli təqdimatları daxil olub.

Samiq Sadıxovun Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri, Elxan Nəcəfovun isə Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinə təsdiq edilmələri ilə əlaqədar Ali Məclisin qərarları ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

İntizam komissiyasının sədri Ehtimad Məmmədov Ali Məclisin Daxili Nizamnaməsində müvafiq dəyişikliyin aparılmasını təklif edib. Anar İbrahimov təklifə Ali Məclisin Aparatında və növbəti sessiyalarda yenidən baxıla biləcəyini qeyd edib, Ali Məclis deputatlarının fəallığı barədə məlumatın hər sessiyadan sonra Ali Məclisin rəsmi orqanı olan "Şərq qapısı" qəzetində yerləşdiriləcəyini diqqətə çatdırıb.

Ali Məclisin plenar iclasına yekun vuran Anar İbrahimov qeyd edib ki, yaz sessiyası müddətində Ali Məclisin 8 iclası keçirilib, 3 qanun, 11 qərar qəbul edilib, Naxçıvan Muxtar Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) illik məruzəsi, parlamentin tarixində ilk dəfə ayrıca prosedur kimi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hesabatı dinlənilib. Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Baş naziri Ali Məclis tərəfindən təyin edilib. İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ əsasında "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanıb, layihə deputatların səs çoxluğu ilə qəbul edilib, baxılması üçün Milli Məclisə göndərilib. Müvafiq dəyişiklik Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli qanunu ilə qəbul edilib. Yaz sessiyası dövründə Ali Məclisin saytı istifadəyə verilib. Bu, muxtar respublika parlamentinin işini daha şəffaf, əlçatan və hesabatlı edib.

Bununla da Ali Məclisin 2024-cü il yaz sessiyasının sonuncu plenar iclası başa çatıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Milli Məclisin iclasında

# Milli Məclisin yaz sessiyası səmərəli keçib

**Mayın 31-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə rəhbərliyi ilə parlament nümayəndə heyətinin mayın 27-28-də Antiqua və Barbudaya işgüzar səfəri barədə məlumat verib. Spiker bildirib ki, səfərin məqsədi Antiqua və Barbudanın paytaxtı Sent-Cons şəhərində keçirilən İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin "Dayanıqlı firavanlıq üçün istiqamətin müəyyən olunması" mövzusunda 4-cü beynəlxalq konfransında iştirak etmək idi.**



Milli Məclisin Sədri deyib ki, dünyanın müxtəlif ölkələrindən hökumət üzvləri olmaqla yüzdən çox nümayəndənin iştirak etdiyi toplantıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini çatdırıb. Səfər çərçivəsində keçirdiyi görüşlər haqqında danışan Sahibə Qafarova bildirib ki, Seynt Vinsent və Qrenadinin Baş naziri Ralf Qonzalves, Kubanın vitse-prezidenti Salvador Antonio Valdes Mesa, Antiqua və Barbudanın Nümayəndələr Palatasının sədri Cerald Uott və Senatın sədri Alinsia Vilyams Qrant ilə danışıqlarda Azərbaycanın bu ölkələrlə münasibətlərinə dair fikir mübadiləsi aparılıb, beynəlxalq təşkilatlarda əməkdaşlıq və qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulanıb.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. İlk olaraq "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb. Məsələ barədə məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, qlobal geosiyasi çağırışlara rəğmən, Prezident İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı islahatların nəticəsi olaraq 2023-cü ildə ölkəmizdə makroiqtisadi sabitlik təmin edilib, inflyasiya birrəqəmli səviyyədə saxlanılıb. Həmçinin ötən il ərzində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft/qaz məhsullarının ixracının genişləndirilməsi və biznes mühitinin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilib.

Ötən ilin dünya iqtisadiyyatının zəif bərpası ilə xarakterizə olunduğunu deyən komitə sədri 2023-cü ildə Azərbaycanda keçirilən antiinflyasiya siyasəti nəticəsində orta illik inflyasiyanın 10.4 faizlik proqnoza qarşı 8.8 faiz təşkil etdiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, 2023-cü ildə dünya üzrə büdcə kəsirinin ÜDM-ə nisbəti 5,5 faizə bərabər olub. Ölkəmizdə isə bu göstərici ÜDM-nin 1 faizini təşkil edib. Komitə sədri deyib ki, 2023-cü ildə ölkəmizdə ÜDM real ifadədə 1,1 faiz artaraq, nominal olaraq 111,6 milyard manat proqnoza qarşı 123 milyard manat təşkil edib. Qeyri-neft/qaz sektorunda 3,7 faizlik artım qeydə alınıb.

Dövlət büdcəsinin əsas parametrlərini təqdim edərkən komitə sədri bildirib ki, 2023-ci ildə dövlət büdcəsinin gəlirləri 33 890,5 milyon manat proqnoza qarşı 35 236,4 milyon manat təşkil edib. Gəlirlər proqnozla müqayisədə 1 345.9 milyon manat və ya 4 faiz çox icra olunub. Büdcə gəlirlərinin 45,8 faizi vergi orqanlarının xətti ilə, 18 faizi gömrük orqanlarının xətti ilə, 33,3 faizi Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin, 2,9 faizi isə digər gəlirlər üzrə daxilolmaların payına düşüb. Dövlət büdcəsi gəlirlərinin tərkibində qeyri-neft sektoru üzrə daxilolmalar 17080 milyon manat olmaqla proqnozdan 1129.2 milyon və ya 7.1 faiz çoxdur.

Bildirilib ki, 2023-ci il dövlət büdcəsində təsdiq olunmuş 36 624.8 milyon manat xərcin 99.5 faizi icra olunub. Qeyd olunub ki, bu icra faizi son illərin ən yüksək icra faizidir.

Dövlətin apardığı sosial-iqtisadi siyasətin davamı olaraq əhalinin gəlir əldə etmək imkanlarının artırılması və rifahının yaxşılaşdırılması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin, xüsusilə də sosial cəhətdən həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi məqsədilə onlara ödənilən sosial ödənişlərin, o cümlədən əməkhaqlarının, əmək pensiyalarının, sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması 2023-cü ildə də davam etdirilib. Belə ki, 2023-cü ildə sosial müavinətlər, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları, diplomatik xidmət əməkdaşlarının əməkhaqları və Azərbaycan Respublikası Prezidentinin təqaüdləri əhəmiyyətli dərəcədə artırılıb. Bundan başqa dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində çalışan 165 minə yaxın işçinin əməkhaqlarının artımı üçün 142,7 milyon manat vəsait sərf edib. Yuxarıda sadalanan artımların maliyyə tutumu cəm olaraq 749,8 milyon manata bərabər olmaqla 1,9 milyon nəfər vətəndaşı əhatə edib.

Dövlət büdcəsindən digər tədbirlərə sərf olunan vəsaitləri də diqqətə çatdıran Tahir Mirkişili qeyd edib ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2023-cü ilin dövlət büdcəsindən cəm olaraq 5581,6 milyon manat vəsait ayrılıb.

2023-cü ilin dövlət büdcəsinin qarşıya qoyulan hədəflərə adekvat icra olunduğunu vurğulayan və qanun layihəsinə rəhbərlik etdiyi komitənin rəyinin müsbət olduğunu deyən Tahir Mirkişili çıxışının sonunda büdcə gəlir və xərclərinin daha dəqiq planlaşdırılması və daha effektiv icrası ilə bağlı qənaətlərini və fikirlərini səsləndirib.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov 2023-cü ilin dövlət büdcəsinin icrası ilə bağlı Hesablama Palatasının rəyini təqdim edib. Palata sədri dövlət büdcəsinin icra edildiyi makroiqtisadi mühitin təhlili, büdcə hesabatlılığının hüquqi aktlara və strateji sənədlərə uyğunluğu, büdcə vəsaitlərinin idarə edilməsinin qiymətləndirilməsi nəticələri barədə məlumat verib. O, qeyd edib ki, dövlət büdcəsinin gəlirlərinin icrasını təmin edən qurumların təqdim etdiyi hesabatlar əsasında 2023-cü ildə 34477,1 milyon manat məbləğində (büdcənin ümumi gəlirlərinin 97,8 faizi) daxilolmalar təhlillə əhatə edilib.

Vüqar Gülməmmədov dövlət büdcəsi gəlirlərinin əsas mənbələr üzrə icra vəziyyəti, inzibatçılığın qiymətləndirilməsi, habelə 2023-cü il ərzində dövlət büdcəsinin xərclərinin icrası prosesində həyata keçirilmiş dəyişikliklər, funksional, iqtisadi və inzibati təsnifat üzrə, fondlar üzrə xərclərin icra vəziyyəti, dövlət əsaslı vəsait qoyuluşlarının icrası, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitin icrası və digər istiqamətlər üzrə palatanın münasibətini diqqətə çatdırıb.

Məsələnin müzakirəsində komitə sədrləri Fazil Mustafa, Tahir Rzayev, Zahid Oruc, deputatlar Elman Nəsirov, Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Bəhruz Məhərrəmov, Kamran Bayramov və Sabir Rüstəmxanlı fikirlərini bildiriblər, rəylərini səsləndiriblər.

"Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda daha sonra "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) müzakirə olunub. Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qeyd edib ki, layihə birinci oxunuşda ətraflı müzakirə olunub, qaldırılan məsələlərə komitədə ikinci oxunuş zamanı aydınlıq gətirilib, verilən suallarla bağlı arayış təqdim olunub.

Musa Quliyev diqqətə çatdırıb ki, təklif olunan dəyişikliklər mahiyyət etibarı ilə 4 istiqaməti əhatə edir. Belə ki, layihədə qanunun 9.5, 9.5-2, 9.6 və 20.14.2-ci maddələrini əhatə edən dəqiqləşdirici xarakterli dəyişikliklər, 20.2, 20.3, 20.6, 20.9, 20.10, 20.21, 20.22 və 20.16.2-ci maddələrdə nəzərdə tutulan bir səlahiyyət müddətində sığorta stajı olan şəxslərin pensiya təminatının sığorta pensiyası prinsiplərinə uyğunlaşdırılmasına xidmət edən dəyişikliklər öz əksini tapıb. Növbəti dəyişiklik hərbi xidmətlə bağlı əlilliyi olan şəxslərin sosial müdafiəsini gücləndirmək məqsədi daşıyır. Bu qəbildən olan şəxslərin orqanizmin funksiyalarının 81-100 faiz itirilməsi zamanı onların pensiyasının məbləğinin təminat xərclərinin 60 faizdən 70 faizə qaldırılması təklif edilir. Sənəddə həmçinin avtomatlaşdırılmış pensiya sisteminin təkmilləşdirilməsi və proaktiv pensiya təyinatı dairəsini genişləndirmək məqsədi daşıyan dəyişikliklər də ehtiva olunur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri bildirib ki, növbəti məsələ "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiya"nın təsdiq edilməsi haqqında qanun layihəsidir. O qeyd edib ki, layihə beynəlxalq sənədin təsdiq edilməsi ilə bağlı olduğuna görə bir oxunuşda baxılıb qəbul ediləcək.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov qanun layihəsini təqdim edib. Bildirilib ki, "Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması (BEPS) məqsədilə Vergi Sazişi üzrə tədbirlərin həyata keçirilməsinə dair Çoxtərəfli Konvensiya" İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən BEPS layihəsi çərçivəsində hazırlanıb və vergi bazasının aşınmasının və mənfəətin köçürülməsinin qarşısını almağa yönəlmiş beynəlxalq vergi müqaviləsidir. Qeyd olunub ki, BEPS vergi qaydalarındakı boşluqlar və uyğunsuzluqlardan istifadə edərək, mənfəəti aşağı və ya heç vergi olmayan yerlərə süni şəkildə köçürmə strategiyalarını ifadə edir və bu, ümumi olaraq korporativ vergilərin az və ya heç ödənilməməsinə səbəb olur. Çoxtərəfli Konvensiya BEPS-ə qarşı qlobal mübarizənin əsas elementi olmaqla, vergidən yayınma məsələsini həll etmək və mənfəət əldə edən iqtisadi fəaliyyətlərin həyata keçirildiyi və dəyərin yaradıldığı yerlərdə mənfəətin vergiyə cəlb edilməsini təmin etmək üçün ölkələr arasında geniş konsensusu əks etdirir. Konvensiya vergitutma bazasının aşınması və mənfəətin köçürülməsinin qarşısının alınması üçün nəzərdə tutulmuş müxtəlif tədbirləri həyata keçirir, müxtəlif yurisdiksiyaların xüsusi vergi siyasəti üstünlüklərinə uyğunlaşmaq üçün çevikliyi təmin edir.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Azər Kərimli məsələ ilə bağlı bu komitənin rəyini açıqlayaraq bildirib ki, konvensiya ölkələr arasında vergi məlumatlarının şəffaflığının artırılması, sui-istifadə hallarının və vergidən yayınmanın qarşısının alınması baxımından mühüm rol oynayır, bu isə dövlətlər arasında etimadı gücləndirir və daha ədalətli, dürüst vergi sisteminin əsasını yaradır.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin sədri Sahibə Qafarova gündəliyin digər üç məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu və növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu söyləyib. Spiker diqqətə çatdırıb ki, bu məsələlər - "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihələridir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov həmin qanun layihələri barədə məlumat verib. Hər iki sənədin iki oxunuşda müzakirə olunaraq qəbul edildiyini nəzərə çatdıran millət vəkili layihələrin mətnində hər hansı bir dəyişikliyin edilmədiyini bildirib. Hər iki layihə Azərbaycan Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın icrası ilə bağlı hazırlanıb.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Deputat əvvəlki oxunuşlarda məsələ barədə ətraflı məlumat verildiyini, əlavə heç bir təklif və dəyişikliyin olmadığını deyib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Spiker Sahibə Qafarova gündəliyin son üç məsələsinin uyğunlaşdırma xarakteri daşıdığını, müvafiq qanunvericiliyin tələbinə əsasən bu qanun layihələrinin bir oxunuşda baxılıb qəbul ediləcəyini söyləyib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Dərman vasitələri haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, layihə "Qida təhlükəsizliyi haqqında" 5 may 2022-ci il tarixli Qanunun icrası məqsədilə hazırlanıb. Həmin qanunla "bioloji aktiv qida məhsulları" qida məhsulu olaraq tənzimlənmiş və ona dair bir sıra tələblər təsbit edilmişdir. Bununla əlaqədar olaraq qeyd olunan qanunlara təklif edilən dəyişikliklərdə "bioloji fəallığa malik qida əlavələri" termininin "bioloji aktiv qida məhsulları" termini ilə əvəz edilməsi, "Dərman vasitələri haqqında" qanunda təsbit olunan "bioloji aktiv qida məhsulları" anlayışının yeni redaksiyada verilməsi, bioloji aktiv qida məhsullarının reklamına dair tələblərin dəqiqləşdirilməsi nəzərdə tutulur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məsələ barədə bu komitənin rəyini açıqlayaraq qeyd edib ki, bioloji aktiv qida məhsullarının reklamında onların dərman vasitəsi olmaması, habelə qeydiyyata alınmasının təsdiqi ilə bağlı məlumat əks olunmalıdır.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. Bildirilib ki, "Publik hüquqi şəxslər haqqında" 2015-ci il 29 dekabr tarixli Qanunun tətbiqi barədə" Azərbaycan Prezidentinin 2016-cı il 3 fevral tarixli Fərmanına uyğun olaraq, xüsusi təhsil müəssisələrinin fəaliyyətinin ümumi təhsil müəssisələrinin nümunəvi nizamnaməsi çərçivəsində tənzimlənməsi nəzərdə tutulur. Bununla əlaqədar olaraq, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Qanunun 13.4-cü maddəsinin ləğv edilməsi, 20.1-ci maddəsində isə dəqiqləşdirmə məqsədilə "fiziki çatışmazlığı, əqli və (və ya) psixi ləngimələri olanlar" ifadəsinin "sağlamlıq imkanları məhdud olan şəxslər" ifadəsi ilə əvəz edilməsi nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin mahiyyəti haqqında danışıb. Qeyd olunub ki, sənəd uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, "Elektroenergetika haqqında" qanunun 8-ci maddəsində 200 kVt-dan yuxarı elektrik qurğularının istismarının "icazə" əsasında həyata keçirilməsi təsbit edildiyindən "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda müvafiq dəyişiklik təklif edilir.

Bununla yanaşı, elektrik enerjisinin istehsalının "icazə" əsasında həyata keçirilməsinin hədləri "Elektroenergetika haqqında" qanunda təsbit edildiyindən "Lisenziyalar və icazələr haqqında" qanunun 3 nömrəli əlavəsinin 53-cü maddəsində və "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qanunda müvafiq dəyişiklik nəzərdə tutulur. Həmçinin "Elektroenergetika haqqında" qanunun qəbulu ilə əlaqədar "Elektrik və istilik stansiyaları haqqında" qanunun ləğv edildiyi qeyd olunaraq, bildirilib ki, bununla əlaqədar "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" və "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" qanunlarda dəyişikliklər olunur, habelə bir sıra qanunlarda termin və anlayışların dəqiqləşdirilməsi həyata keçirilir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məsələ ilə bağlı bu komitənin müsbət rəyini diqqətə çatdırdıqdan sonra qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Sonra Milli Məclisin Sədri deyib ki, yaz sessiyasının son iclasıdır. Konstitusiyanın 88-ci maddəsinin II hissəsinə uyğun olaraq, 80 deputat növbədənkənar sessiyanın çağırılması üçün parlamentin sədrinə müraciət edib və iyun ayında parlamentin növbədənkənar sessiyası olacaq.

Spiker deputatlara yaz sessiyasının yekunları barədə qısa məlumat verib.

Bildirilib ki, Milli Məclisin yaz sessiyası başladıqdan az sonra, fevralın 14-də Prezident İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirilib. Andiçmə mərasimində söylədiyi proqram xarakterli nitqində Azərbaycan Prezidenti dövlətin yeni dövrün tələblərindən irəli gələn vəzifələrini müəyyən edib. Sədr qeyd edib ki, Milli Məclis də dövlət başçısının müəyyən etdiyi hədəflərə uyğun olaraq, yaz sessiyasında fəaliyyətini həmin tələblər səviyyəsində qurmağa çalışıb.

Diqqətə çatdırılıb ki, sessiya ərzində parlamentin 13 iclası keçirilib, 61 qanun qəbul edilib. Başqa sözlə, 2 yeni qanun qəbul olunub, 50 qanunda dəyişiklik edilib, 9 beynəlxalq müqavilə təsdiq olunub.

Spiker Sahibə Qafarova bildirib ki, inamla demək olar ki, qəbul edilmiş qanunvericilik aktları ölkəmizdə həyata keçirilən quruculuq işlərinin və islahatların qanunvericilik bazasını daha da möhkəmləndirməyə və təkmilləşdirməyə xidmət edir.

Yaz sessiyasında görülmüş işlər haqqında danışan parlamentin sədri vurğulayıb ki, həmişə olduğu kimi, hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq Milli Məclisin qarşısında dayanan vəzifələrin uğurla yerinə yetirilməsinə kömək göstərib.

Parlamentlə hökumət arasında konstruktiv işbirliyini xüsusi qeyd edən Milli Məclisin Sədri, hökumətin müxtəlif strukturlarının, o cümlədən nazirliklərin və dövlət komitələrinin nümayəndələrinin mütəmadi olaraq Milli Məclisin və komitələrin iclaslarına dəvət olunduğunu diqqətə çatdırıb, qanun layihələrinin müzakirəsi zamanı onların rəylərinin dinlənildiyini deyib. Bununla birlikdə, deputatların da bir sıra mülahizə və təkliflərinin icra orqanları tərəfindən nəzərə alındığını bildirib.

Qeyd olunub ki, yaz sessiyası dövründə böyük ictimai əhəmiyyət daşıyan məsələlərin müzakirəsi və qanun layihələrinin keyfiyyətinin daha da yüksəldilməsi məqsədi ilə lazım gəldikdə ictimai dinləmələr keçirilməsi praktikasından da istifadə edilib. Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi ilə Aqrar siyasət komitəsinin birgə təşkilatçılığı ilə "Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar" mövzusunda, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi tərəfindən "Nəqliyyatın idarə edilməsində yeniliklər və çağırışlar" mövzusunda, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə və Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin birgə təşkilatçılığı ilə "Sağlam ailə modelinin hüquqi aspektləri - "Yaşıl dünya" müstəvisində" mövzusunda ictimai dinləmələrin keçirildiyi diqqətə çatdırılıb.

Bununla birlikdə, qeyd olunub ki, Milli Məclis deputatlarının, Bakı Təşəbbüs Qrupunun, Azərbaycan Milli Elmlər Akademiyasının, Bakı Dövlət Universiteti təmsilçilərinin, Yeni Kaledoniya parlamenti üzvlərinin iştirakı ilə "Yeni Kaledoniya: tarix, müasir çağırışlar və gözlənilən gələcək" mövzusunda və Fransız Polineziyası parlamenti deputatlarının və siyasi xadimlərinin iştirakı ilə "Fransız Polineziyasının dekolonizasiya hüququ: çağırışlar və perspektivlər" mövzusunda konfranslar təşkil edilib.

Milli Məclisin Sədri deyib ki, 44 günlük Vətən müharibəsi və birgünlük antiterror tədbirləri nəticəsində əldə olunmuş tarixi qələbələr sayəsində Azərbaycan beynəlxalq hüququn qüvvəsini bərpa etdikdən və ərazi bütövlüyünü, suverenliyini tam təmin etdikdən sonra ölkəmizə qarşı qərəzli hücumlar güclənib. Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqları qəbul etməyən bu qüvvələr müxtəlif bəhanələr altında ölkəmizin daxili işlərinə müdaxilə etməyə çalışır, bu məqsədlə böhtan və hədələrə əl atırlar. Beynəlxalq təşkilatların Azərbaycan barəsində qeyri-obyektiv və əsassız qətnamələrinə, eləcə də bəzi ölkələrin parlament üzvlərinin qeyri-adekvat iddialarına Milli Məclisin və onun komitələrinin münasibəti yaz sessiyasında lazım gəldikcə qətiyyətlə və kəskin şəkildə ifadə edilib.

Milli Məclisin Sədri deyib ki, sessiya ərzində parlamentin səlahiyyət dairəsinə daxil olan bir sıra təyinat məsələləri də həll edilib.

Bildirilib ki, ümumən bu sessiya dövründə Milli Məclisin 21 qərarı qəbul olunub.

Spiker diqqətə çatdırıb ki, yaz sessiyasında Milli Məclisin nəzarət funksiyasının yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər görülüb. Belə ki, Nazirlər Kabinetinin, Hesablama Palatasının, insan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, insan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən müvafiq qurumun, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının hesabat, məruzə və məlumatları dinlənilib.

Yaz sessiyasında parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində zəruri tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, bu dövr ərzində Milli Məclisin 62 deputatı 26 ölkəyə 102 səfər həyata keçirib. Deputatlarımız 9 beynəlxalq təşkilatın tədbirlərində iştirak və çıxış ediblər. Millət vəkillərimiz Rusiyada keçirilən prezident seçkilərini, Belarusda keçirilən parlament seçkilərini və yerli deputat şuralarına seçkiləri, eləcə də İndoneziyada keçirilən prezident və parlament seçkilərini müşahidə ediblər.

Yaz sessiyası ərzində 56 ölkənin və 20 beynəlxalq təşkilatın 101 nümayəndə heyəti, ümumən 544 nəfərdən çox xarici qonaq Milli Məclisdə olub.

Diqqətə çatdırılıb ki, Milli Məclis Sədrinin 2 ölkəyə rəsmi və 4 ölkəyə işgüzar səfərləri baş tutub. Parlamentin spikerinin Milli Məclisdə 3 ölkənin prezidenti, 20 ölkənin parlament sədrləri və sədr müavinləri, 7 beynəlxalq təşkilatın rəhbərləri, 2 ölkənin icra hakimiyyəti orqanının nümayəndələri, 5 dövlətin Azərbaycandakı səfirləri ilə görüşləri keçirilib. Aparılan danışıqlarda ikitərəfli və çoxtərəfli parlamentlərarası əlaqələr və digər məsələlər müzakirə edilib.

Spiker Sahibə Qafarova deputatlara yaz sessiyası dövründə Milli Məclis tərəfindən 7 beynəlxalq tədbir keçirildiyi barədə məlumat verib. Bildirilib ki, tədbirlərdən 5-i Bakıda Milli Məclisin evsahibliyi ilə baş tutub, 2-i isə xaricdə keçirilib. Belə ki, fevralın 21-də və 22-də Asiya Parlament Assambleyasının İcraedici Şurasının iclası və 14-cü plenar sessiyası 276 nəfərin iştirakı ilə keçirilib. Martın 4-də TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının iclası, aprelin 25-də Türk Dövlətləri Parlamentlərinin Xarici Əlaqələr Komitələri Sədrlərinin Birinci iclası və mayın 2-də 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Parlamentlərarası konfransı Bakıda keçirilib.

Spiker diqqətə çatdırıb ki, Asiya Parlament Assambleyasının 14-cü plenar sessiyasında 2024-2025-ci illər üçün bu təşkilata sədrlik Azərbaycan Respublikasına keçib.

Milli Məclisin xaricdə baş tutmuş 2 tədbiri barədə danışan parlamentin spikeri söyləyib ki, martın 23-də Asiya Parlament Assambleyasının koordinasiya iclası və martın 25-də Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin (QHPŞ) 3-cü konfransı Milli Məclisin təşkilatçılığı və Azərbaycan parlamentinin spikerinin rəhbərliyi ilə İsveçrənin Cenevrə şəhərində keçirilib. QHPŞ-nin 3-cü konfransının işində 275 nəfər qonaq qismində iştirak edib.

Deputatlara yaz sessiyası dövründə Milli Məclis ilə Parlamentlərarası İttifaq arasında, həmçinin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Parlamentlərarası İttifaq arasında anlaşma memorandumlarının, eləcə də Milli Məclis ilə Yeni Kaledoniya Konqresi arasında əməkdaşlıq haqqında memorandumun imzalanması barədə məlumat verilib.

Sonda spiker Sahibə Qafarova Milli Məclisin yaz sessiyasının uğurla başa çatdığını deyib və bununla əlaqədar deputatlara səmərəli iş üçün təşəkkür edib.

Milli Məclisin Sədri yaz sessiyasını bağlı elan edib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***




# İlham Əliyevə qlobal dəstək artır

## Azərbaycan Prezidentinin COP29-la bağlı təklif və təşəbbüsləri təqdir edilir

**Azərbaycanın beynəlxalq toplantılara, forumlara, konfranslara, hətta idman yarışlarına yüksəksəviyyəli evsahibliyi dünya tərəfindən hər zaman təqdir edilib.**

Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlara uğurlu sədrlik edən, Avropa Oyunlarının standartlarını müəyyənləşdirən, İslam Həmrəyliyi Oyunlarına, siyasi-iqtisadi beynəlxalq forumlara, konfranslara ən layiqli şəkildə evsahibliyi etməsi ilə qlobal səviyyədə nüfuzunu artıran Azərbaycan indi müstəqillik tarixinin ən böyük tədbirinə - BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu qlobal sessiyasına (COP29) hazırlaşır. Əlbəttə ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi ölkəmizin üzərinə böyük məsuliyyət qoyur. Ancaq bu sahədəki təcrübə yetərlidir ki, bu beynəlxalq konfransı da ən yüksək səviyyədə keçirə bilək.

COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir, ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Bu günədək ölkəmizdə bir çox tədbir keçirilsə də, COP29 onlarla müqayisəyə gəlmir. Çünki COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın diqqət mərkəzinə çevriləcək.

COP29 konfransına evsahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

Prezidentin sərəncamı ilə sammitin keçirilməsi ilə əlaqədar təşkilat komitəsi də yaradılıb. Fevralın 22-də isə bu sənədə dəyişiklik edilməsi ilə bağlı yeni sərəncam imzalanıb. Sənədə əsasən təşkilat komitəsinin tərkibi bir qədər də genişləndirilib.

Əlbəttə ki, COP-29-la bağlı Azərbaycandan böyük gözləntilər var, həm hazırlıq prosesinin, həm tədbirin özünün yüksək səviyyədə təşkili üçün cəmiyyətin müxtəlif seqmentlərinin səfərbər olunması zəruri idi. Bu da təşkilat komitəsinin tərkibinin bir qədər də genişləndirilməsini şərtləndirirdi. Sərəncama nəzər yetirdikdə aydın şəkildə görünür ki, təşkilat komitəsində gender balansı tam təmin olunub ki, bu da Prezidentin qadınların cəmiyyətdəki roluna olan diqqətinin, etimadının və hörmətinin göstəricisidir.

Ümumiyyətlə isə dünyada bu sahədə vətəndaş cəmiyyəti çox aktivdir. Ona görə təşkilat komitəsinə vətəndaş cəmiyyətinin nümayəndələri də daxil edilib ki, bu işə onlar da töhfə verə bilsinlər. COP-29-da müzakirəyə çıxarılacaq müasir çağırışlar, innovasiya məsələlərinin geniş müzakirə olunacağı nəzərə alınaraq, təşkilat komitəsində iqtisadiyyat, innovasiya sahəsində çalışan şəxslər də təmsil olunurlar.

Göründüyü kimi, Azəbraycan bu beynəlxalq sammitə yüksək səviyyədə evsahibliyi etmək üçün bütün imkanlarını səfərbər edib. Buna beynəlxalq birlik də şahidlik edir və İlham Əliyevin bu istiqamətdə atdığı bütün addımlar təqdir olunur. Bunu 28 May - Müstəqillik Günü ilə bağlı Prezidentə ünvanlanan təbrik məktublarından da görmək mümkündür.

Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenin təbrik məktubunda da qeyd edilir ki, ABŞ regional və qlobal məsələlərdə, o cümlədən iqlim dəyişikliyi və "yaşıl enerji"yə keçid sahəsində Azərbaycanla qarşılıqlı əməkdaşlığı dərinləşdirməyə səy göstərəcək. Ağ Ev noyabrda Bakıda keçiriləcək COP29 çərçivəsində iqlimlə bağlı birgə məqsədlərin irəlilədilməsini arzulayır və tədbirin uğurla reallaşmasında Azərbaycana dəstək verməyə hazırdır.

Kanadanın General-Qubernatoru Meri Saymonun məktubunda deyilir ki, bu ölkə ilin sonunda Azərbaycanın evsahibliyi edəcəyi COP29 tədbirini səbirsizliklə gözləyir. Kanada Azərbaycanla münasibətlərini daha da inkişaf etdirməyə, həmçinin vətəndaşlarımız üçün daha yaxşı gələcək naminə birgə səy göstərməyə hazırdır.

Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin məktubunda isə vurğulanır ki, builki COP29 iqlim konfransına evsahibliyi edən Azərbaycan öz üzərinə xüsusi məsuliyyət götürüb: "Buna görə Sizə və Sizin həmvətənlərinizə təşəkkür etmək və Sizi iddialı iqlim siyasətinə mühüm təkan verməyə təşviq etmək istərdim".

Proseslər həm də onu deməyə əsas verir ki, COP29-da şəxsən iştirak edəcək dövlət başçılarının sayı əvvəlkilərdən xeyli çox ola bilər. Artıq bir neçə dövlət başçısının - Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Tacikistan Prezidenti Emoməli Rəhmon, Finlandiya Prezidenti Aleksandr Stubb, Polşa Prezidenti Ancey Duda, Latviya Prezidenti Edqars Rinkeviçs, İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun COP29-da iştirak edəcəyi təsdiqini tapıb. Əminik ki, getdikcə bu say daha da artacaq.

Mayın 30-da 14 ölkənin Qeyri-Hökumət Təşkilatları Azərbaycanın COP29 fəaliyyətini alqışlayan bəyanat yayıb. ABŞ, Böyük Britaniya, Almaniya, Belçika, Niderland, İtaliya, Macarıstan, Avstraliya, Pakistan, Nigeriya, Əlcəzair, Kamerun, Meksika, Hindistandan olan QHT-lər və ictimai fəallar Azərbaycan Milli QHT Forumuna məktub ünvanlayaraq, COP29-a evsahibliyi edən Azərbaycana güclü dəstək ifadə ediblər. Müraciətdə bildirilir ki, bəyanatda imzası olan vətəndaş cəmiyyəti təşkilatları və ictimai fəallar 2024-cü ilin noyabrında Azərbaycanın paytaxtı Bakıda keçiriləcək COP29-un vacibliyini vurğulayırlar. "Bu tədbir böyük gözləntilər daşıyır. COP29-a evsahibliyi edən Azərbaycan bütün səslərin eşidildiyi, perspektivlərin nəzərdən keçirildiyi və inklüziv nəticələrin təmin edilməsi üçün birgə səylərin səfərbər olunduğu inklüziv mühitin yaradılmasına sadiqlik nümayiş etdirir. İnklüziv və birgə iqlim fəaliyyətinin tərəfdarları kimi biz QHT-lərin COP29-da iştirakının vacib əhəmiyyətinə qəti şəkildə inanırıq. Azərbaycan Milli QHT Forumu ilə, COP29-un sədrliyi və Azərbaycanla planetimiz üçün ümidli gələcəyə dəstək səylərində həmrəy olduğumuzu bəyan edirik", - bəyanatda qeyd edilib.

Bütün bunlar İlham Əliyevin COP29-la bağlı təşəbbüslərinə birmənalı dəstəyin ifadəsidir. Ancaq dövlət başçısı həm də hesab edir ki, əsas məsələ toplantıya yüksək səviyyədə evsahibliyi ilə yekunlaşmır. Eyni zamanda nəticə də önəmlidir. ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda çıxışı zamanı İlham Əliyev bunu xüsusi olaraq vurğulayıb: "Əlbəttə, bizim üçün COP29 çox böyük məsuliyyətdir. Burada söhbət təkcə təşkilati məsələlərdən deyil, nəticələrin əldə edilməsindən də gedir".

COP29-a hazırlıqlar, aparılan müzakirələr, görülən işlərlə bağlı isə dövlət başçısı "Euronews" telekanalına müsahibəsində çox maraqlı fikirlər səsləndirib və COP üçün yenilik ola biləcək "üçlük" təşəbbüsündən danışıb. İlham Əliyev vurğulayıb ki, əgər "yaşıl dünya"ya doğru əlavə və davamlı olan konkret addımlar ata bilsək, bu, ən vacib miras olacaq: "COP üçün yenilik olan bir təşəbbüs bizim tərəfimizdən irəli sürülmüşdür. Üçlük, üç ölkə mexanizminin yaradılması. Burada məqsəd bu üçtərəfli əməkdaşlıq formatını yaratmaq üçün BƏƏ-nin, Azərbaycanın və sonra Braziliyanın təcrübəsindən istifadə etməkdir. Çünki hər üç ölkə müxtəlif regional, iqtisadi, siyasi və sair məsələlərdə iştirak edir. Beləliklə, biz qarşılıqlı səylər, həmrəylik göstərməli, bir-birimizi günahlandırmağı dayandırmalıyıq. Nefti olmayan ölkələr nefti olan ölkələri ittiham etməməlidir, kiçik və inkişaf etməkdə olan ölkələr inkişaf etmiş böyük ölkələrə "siz iqlim fəlakətinə görə məsuliyyət daşıyırsınız" deməklə onlara qarşı tələblər irəli sürməməlidirlər. Beləliklə, bu, diplomatiyadır, siyasətdir, maliyyədir və əlbəttə ki, ev sahibi ölkəsi kimi biz bunun üçün bir platforma yarada bilərik".

Bir sözlə, bu sammit Azərbaycanın neft-qaz ölkəsi olmaqla yanaşı, "yaşıl iqtisadiyyat"ı nə dərəcədə prioritet sahə kimi gördüyünü dünyaya sübut edəcək. Bu konfrans Azərbaycanın nüfuzunun daha da yüksəlməsinə mühüm təkan olacaq, ölkə reallıqlarının dünya ictimaiyyətinə birbaşa çatdırılmasına müsbət impuls verəcək.

***Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"***

# Azərbaycan və Türkiyənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair birgə bəyanat imzalanıb

Ədliyyə naziri Fərid Əhmədov türkiyəli həmkarı Yılmaz Tunçun dəvəti ilə Türkiyədə səfərdə olub.

Bu barədə Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Səfər zamanı Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərə - Anıtqəbir və Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq xatirələri ehtiramla anılıb.



Səfər çərçivəsində hər iki ölkənin ədliyyə nazirləri arasında görüş keçirilib. Görüşdə Fərid Əhmədov iki ölkə arasındakı münasibətlərin qardaşlıq və "bir millət, iki dövlət" prinsipinə əsaslandığını, əməkdaşlığın bütün sahələrdə strateji müttəfiqlik səviyyəsində yüksələn xətlə və uğurla davam etdirildiyini vurğulayıb. O qeyd edib ki, iki ölkə prezidentləri səviyyəsində dostluq münasibətləri Türkiyə və Azərbaycan arasındakı tarixi əlaqələri daha da möhkəmləndirib. Yılmaz Tunç 2021-ci ildə imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" ilə iki ölkə arasındakı dostluq və qardaşlıq münasibətlərinin və ikitərəfli əməkdaşlığın daha yüksək səviyyəyə qalxdığını bildirib.

Görüşdə ədliyyə sahəsində qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib, iki qardaş ölkə arasında müvafiq sahə üzrə müxtəlif istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb. Qarşılıqlı səfərlərin və ikitərəfli görüşlərin keçirilməsi, cəzaların icrası, penitensiar və probasiya sistemləri üzrə təcrübə mübadiləsinin həyata keçirilməsi, İKT-nin tətbiqi, eləcə də ədliyyə xidmətlərinin əlçatanlığının artırılması üzrə təcrübələrin paylaşılması, ekstradisiya, məhkumların verilməsi, qarşılıqlı hüquqi yardım sahəsində ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi, birgə təlimlərin təşkil edilməsi üzrə konkret tədbirlərin görülməsi barədə razılıq əldə olunub.

Görüşün sonunda Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Türkiyə Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlığa dair birgə bəyanat imzalanıb.

Həmçinin Fərid Əhmədov səfər çərçivəsində Türkiyə Cəza və Həbs Evləri Baş İdarəsini ziyarət edib, qurumun fəaliyyəti ilə, eləcə də cəzaçəkmə müəssisələrində İKT-nın tətbiqi ilə yaradılan imkanlarla tanış olub.

Bundan əlavə Türkiyə Ədliyyə Akademiyasında və Türkiyə Ədliyyə Nazirliyinin İnformasiya Texnologiyaları Baş İdarəsində görüşlər keçirilib. Fərid Əhmədov Ədliyyə Akademiyasının fəaliyyəti, eləcə də tədris prosesi ilə yaxından tanış olub, orada təhsil alan gələcəkdə məhkəmə və prokurorluq orqanlarında çalışacaq namizədlərlə görüşüb. İnformasiya Texnologiyaları Baş İdarəsində Türkiyənin elektron ədliyyə xidmətləri ilə bağlı təcrübəsi və görülən işlər barədə təqdimat nümayiş etdirilib.

Səfər çərçivəsində açıqtipli cəzaçəkmə müəssisəsi də ziyarət edilib, oranın fəaliyyəti ilə yaxından tanış olunub.

# Bakıda "Erkən uşaqlıq dövrünün inkişafı - koordinasiyalı fəaliyyət" mövzusunda konfrans təşkil olunub

**Mayın 31-də Bakıda "Erkən uşaqlıq dövrünün inkişafı - koordinasiyalı fəaliyyət" mövzusunda konfrans təşkil olunub.**





AZƏRTAC xəbər verir ki, konfransın təşkilində məqsəd "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"na müvafiq olaraq uşaq hüquqlarının müdafiəsi üzrə ayrı-ayrı sahələrdə mütəxəssis hazırlığının təmin edilməsi, erkən uşaqlıq dövründə onların düzgün inkişafı ilə bağlı məlumatlılığının artırılması, müvafiq qurumların koordinasiyasının təmin edilməsidir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova erkən uşaqlıq dövrünün inkişafının aktual mövzulardan olduğunu qeyd edib. Ölkəmizdə uşaq hüquqlarının müdafiəsi istiqamətində müvafiq işlərin görüldüyünü, qanunvericiliyin təkmilləşdirildiyini diqqətə çatdıran komitə sədri bu istiqamətdə müəyyən tədbirlərin həyata keçirilməsinin vacibliyini vurğulayıb. O, uşaqların tərbiyəsi istiqamətində keyfiyyətli tibb xidməti, inklüziv təhsilin imkanlarından da danışıb.

Səhiyyə nazirinin müavini İlqar Qasımov vurğulayıb ki, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın məqsədlərindən biri də vətəndaşların sağlam həyat tərzinin təmin edilməsidir. "Bu məqsədə çatmaq üçün əsas fəaliyyət istiqamətləri olaraq, reproduktiv sağlamlığın təmin edilməsi, uşaqların sağlam həyat tərzinin və sağlam qidalanmasının təşviqi, onların sağlam böyüməsinin təmini, tibbi xidmətin keyfiyyətinin və əlçatanlığının artırılması müəyyənləşib", - deyə nazir müavini əlavə edib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli bildirib ki, nazirliyin fəaliyyət istiqamətlərindən biri də uşaqların uğurlu siyasətinin formalaşdırılması, xüsusilə həssas kateqoriyadan olan uşaqların keyfiyyətli sosial təminatının diqqətdə saxlanılmasıdır.

Uşaqların övladlığagötürmə məsələsinin, himayədar ailələrə verilməsinin mərkəzləşdirilmiş və elektron qaydada aparıldığını diqqətə çatdıran V.Nəsirli 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlara müavinətlərin təsis olunduğunu deyib. Sosial xidmətlərlə bağlı danışan nazir müavini əlavə edib: "Azərbaycanda 2019-cu ilin noyabrından indiyədək 560 uşaq övladlığa götürülüb. Ötən il 15 uşaq himayədar ailəyə verilib".

Onun sözlərinə görə, nazirliyin tabeliyində müasir standartlar əsasında fəaliyyət göstərən dörd uşaq reabilitasiya mərkəzi fəaliyyət göstərir. Burada 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşaqlara yüksək səviyyədə xidmət göstərilir. Cari ilin yanvar-aprel aylarında 9207 uşağa reabilitasiya xidməti göstərilib.

Məktəbəqədər və Ümumi Təhsil Agentliyinin direktor müavini Mehriban Vəliyeva, UNICEF-in Azərbaycan nümayəndəsinin müavini səlahiyyətlərini icra edən Leyla Həsənova, Türkiyə Spastik Uşaqlar Vəqfinin müdiri Turqay Arık və digərləri mövzu ətrafında çıxış edərək öz fikirlərini bölüşüblər, təkliflərini səsləndiriblər.

Tədbirin gedişində UNICEF-in Avropa və Mərkəzi Asiya (ECARO) regionları üzrə məsləhətçisi Aleksandra Yoviçin tədbir iştirakçılarına müraciəti səsləndirilib.

Konfrans "Erkən uşaqlıq dövründə uşaqların sağlam böyüməsi, erkən müdaxilə və psixo-emosional sağlamlığı", "Erkən uşaqlıq dövründə uşaqların sosial inkişafı", "Erkən uşaqlıq dövründə uşaqların təhsili, tərbiyəsi və inkişafi" mövzularında panel müzakirələrlə davam edib. Tədbir iştirakçıları ilə fəal müzakirələr aparılıb, onları maraqlandıran suallar cavablandırılıb. Həmçinin konfrans iştirakçıları üçün təlim günlərinin nəticələrini özündə əks etdirən videoçarx, erkən uşaqlıq dövrünün inkişafı (EUDİ) portalının təqdimatı və bədii hissə nümayiş etdirilib.

Qeyd edək ki, konfransdan əvvəl komitənin təşkilatçılığı ilə mayın 28-30-da Türkiyədən gələn mütəxəssislərin iştirakı ilə respublikamızda təhsil, səhiyyə və sosial sahələrdə uşaqlara xidmət göstərənlər üçün üçgünlük təlimlər keçirilib.

# Baş Prokurorluq Gəncədə işgüzar konfrans keçirib

**Baş Prokurorluq tərəfindən Gəncədə "Ekoloji hüquqpozmalar: maarifləndirmə və qanunvericiliklə nizamlanma" adlı işgüzar konfrans keçirilmişdir.**



"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində keçirilən konfransda çıxış edən baş prokurorun müavini Heydər Məmmədov müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə ekoloji mühitin sağlamlaşdırılması, ətraf mühitin mühafizəsi, eləcə də paytaxtda və bölgələrdə yaşıllaşdırma işinə xüsusi önəm verildiyini qeyd etmiş, bu istiqamətdə prokurorluq orqanlarının da kompleks tədbirlər həyata keçirdiklərini vurğulamışdır.

Konfransda çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfə verdiyini, bu işdən Gəncə şəhərinin də kənarda qalmadığını diqqətə çatdırmışdır.

Çıxışlardan sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media arasında "Yaşıl dünya naminə" səmərəli müzakirələr və təkliflər ətrafında fikir mübadiləsi aparılmışdır.

Prokurorluq orqanlarının fəaliyyətinə olan ictimai maraq nəzərə alınaraq, Gəncə Şəhər Prokurorluğunda "Açıq qapı günü" də keçirilib. Media və qeyri-hökumət təşkilatlarının nümayəndələri, habelə gənclərin iştirak etdikləri tədbirin məqsədi prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, istifadədə olan kriminalistik texnika, habelə prokurorluğun tarixi keçmişi ilə ictimaiyyəti tanış etmək idi.

Tədbirdə qonaqlara prokurorluq orqanlarında aşkarlıq və şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, habelə ictimaiyyətlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər barədə danışılmış, Azərbaycan Respublikasının prokurorluğunda həyata keçirilən hüquqi-institusional islahatlarla bağlı məlumat verilmişdir.

Çıxış edən Gəncə şəhər prokuroru Azad Qarayev şəhər prokurorluğunun fəaliyyəti, cinayətkarlığa qarşı aparılan mübarizə tədbirləri, habelə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülən işlərdən söz açıb. Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov isə çıxışında prokurorluq orqanlarının ictimaiyyətlə əlaqələr sahəsi üzrə fəaliyyətinə toxunmuş, regional media və qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə səmərəli əməkdaşlığın əhəmiyyətindən danışmışdır. Şəhər prokurorluğunun bir neçə struktur qurumunun təcrübəli əməkdaşları tərəfindən müvafiq qurumun fəaliyyəti barədə dinləyicilərə ətraflı məlumat veriləndən sonra iştirakçılar şəhər prokurorluğnun inzibati binasında yaradılmış iş şəraiti, eləcə də "Elektron prokurorluq" informasiya sistemi ilə tanış olmuşlar. Kriminalistik avtomobil və avadanlıqlarla da tanış olan qonaqlara istintaq hərəkətlərinin keçirilməsi zamanı müasir texnikadan istifadənin əhəmiyyəti izah edilmiş, iştirakçılarla fikir mübadiləsi aparılmış, prokurorluq orqanlarının fəliyyəti ilə bağlı verilən suallar cavablandırılmışdır.

***Sabir ƏLİYEV,*
*"Azərbaycan"***

## 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür









# Onlar artıq köçkün uşaqlar deyillər













*Həyata doğuluş hayqırışlarını güllə, top-tüfəng səsləri boğdu...*

*Vaqonlarda, çadır şəhərciklərində, yataqxanalarda iməklədilər, ilk addımlarını heç vaxt isinişə bilmədikləri müvəqqəti yaşayış məskənlərində atdılar...*

*Körpə gözləri boş təknələrə dikili qaldı, aclıq sınağına tuş gəldilər...*

*Bağça, məktəb yaşlarından qışın soyuğunda, yayın qızmarında yardım növbələrində gözlədilər...*

*Çoxları müəllimləri cəbhəyə döyüşə yollandığı üçün parta arxasında oturmadı...*

*Elə oldu ki, qızınmaq üçün oxuyub-yazmalı olduqları kitab-dəftərlərini ocağa atdılar, sonra da ürəklərindən süzülərək kirpiklərində gilələnən göz yaşları içərisində o kitab-dəftərlərlə birgə arzularının da yanıb kül olmasına tamaşa etdilər...*

*Heç uşaqlıq fotoları olmadı... Olanlarsa sonradan bir daha o fotolara baxmaq istəmədilər...*

Ötən günlərindən boylanan qüssəli, kədərli, əzablı körpə simaları görməyə ürəklərinin tab gətirə bilməyəcəyindən qorxdular...

Əşyasız qamış komalardan sökülən qarğı atlarını yarıda qırılan xəyallarının arxasınca hey çapa-çapa qaldılar...

Kiçik yaşlarından həyatın ağırlığını çiyinlərində daşıyan və dərdin bir andaca böyütdüyü uşaqlar oldular...

Ömürlərindən müharibə keçən, uşaqlıqları əllərindən alınan ağrılı-acılı bir nəsil... "Qaçqın", "köçkün" uşaqlar...

❖ ❖ ❖

30 illik bir zamanın uşaq dünyalarını udduğu, zalım qədərin talelərini dəyişdiyi qaçqın və məcburi köçkün uşaqlar bu bir qərinəlik vaxt dilimində təsvirəgəlməz maddi, mənəvi məhrumiyyətlərə tuş gəldilər, xeyli əzablara sinə gərdilər...

İnsafsız taleyin onlar üçün açdığı əzab-əziyyətlərdən keçən yolla yıxılıb-duraraq addımlamağa çalışdılar...

Təkcə qaçqın və məcburi köçkün uşaqlarmı?! Yox.

Uşaqlığı həmin dövrə təsadüf edən ölkədəki bütün uşaqlar...

O uşaqlar elə bir zamanda dünyaya gəlirdilər ki, hər gün bir evə şəhid atəşi düşürdü. Elə bir ailə yox idi ki, yaxınını, doğmasını, qohumunu, qonşusunu itirməsin. Ağı deyən analar taqətdən, bacılar heydən düşmüşdü. Dərd o həddə çatmışdı ki, atalar - kişilər də ağlayırdı.

O günlərin ən çarəsizləri isə uşaqlar idi.

Oynamaqdan, sevincdən, deyib-gülməkdən məhrum olan kövrək uşaqlar...

Kədərin dost olduğu uşaqlar...

❖ ❖ ❖

Heç şübhəsiz, bir gündəcə adları çevrilib "köçkün" olan on minlərlə uşağın ağrılı-acılı yaşantısı tamam başqaydı...

Amma bir də xocalılı uşaqlar var idi.

Dərdlərinin ağırlığını, faciələrinin miqyasını təsvir etmək mümkünsüz olan məsumlar...

O qarda-şaxtada başıaçıq, ayaqyalın meşələrə, düzlərə düşən, nalələri yeri-göyü inlədən qanbağır körpələr...

Bir yox, onlarca ailə üzvünü itirənlər, nənə-babaları, ata-anaları, bacı-qardaşları gözləri önündə öldürülənlər, al-qana bulanan şəhidlərinin məzarının yerini belə bilməyənlər, itkin doğmalarının yolunu hələ də gözləyənlər...

Əsirlikdə işgəncə görmüş, özləri valideyn qayğısına möhtackən darmadağın olmuş, başsız qalmış ailələrinə dayaq durmağa çalışan balaca "böyük"lər...

Heç bir sözlə, heç bir təsəlli ilə ovuna, könüldən şadlana bilməyən, qəlblərindəki sağalmaz yaralar sızlaya-sızlaya yaşlananlar...

Dərdlə qoşa böyüyənlər, taleyin öz qəm, kədər, ağrı, acı mizrağını ürəklərinə dərindən sapladığı xocalılı uşaqlar...

❖ ❖ ❖

Şuşalı, laçınlı, ağdamlı, xocalılı, cəbrayıllı, zəngilanlı, kəlbəcərli... "köçkün" uşaqlardan biri də mən idim. Kəlbəcəri tərk edən zaman cəmi 10 yaşım vardı.

Bütün "köçkün" uşaqların çəkdiyi, üzləşdiyi məhrumiyyətlər həmin yaşdan elə mənim də həyat tərzimə çevrilmişdi.

Özümüz də hiss etmədən müharibə qətrə-qətrə iliklərimizə işləmişdi, biz də bu qan-qadanın bir hissəsi olmuşduq.

Ümumiyyətlə, qədərimizlə, yaşantımızla biz köçkün uşaqlar bir-birimizə yaman bənzəyirdik.

Yaşadığımız evlər də eyniydi, hamısı uçuq-sökük, qışda buz kimi soyuq, yayda cəhənnəm kimi isti...

Boş qazanlar, təknələr, cırıq paltarlar, ayaqqabılar, dərdli valideynlər...

Göz yaşı, iztirab, könül sınıqlığı...

Heç xoşumuz gəlmirdi "köçkün", "qaçqın" sözündən...

İlahi, bu dəhşətli addan qurtulmaq, öz doğma yurdumuza qovuşmaq üçün necə ümidlə, həsrətlə gözləyirdik.

Qulağımız səsdə, gözlərimiz yolda, ürəyimiz həsrətdə düz birqərinəlik böyük müddətdə zaman girdabında çabaladıq...

Bir də gördük ki, aman Allah, vəfasız ömrün çoxu gedib...

Bir də ayıldıq ki, heç uşaqlığımızı yaşamadan yaşlanmağa üz tutmuşuq...

Vaxtilə analarının qucağında bir yaşında doğma yurdlarını tərk edən körpələrin indi 30-a yaxın yaşları var, özləri valideyndirlər.

Bəli, amansız zaman sürətlə keçib və biz hamımız uşaqlığımızı yaşamadan böyümüşük.

Ata-ana, nənə-baba olmuşuq... Övladlarımız, nəvələrimiz var...

❖ ❖ ❖

O ağrılı-acılı günlər hər birimizin qəlbində dərin yaralar açıb qaysaq bağlasa da, bir daha heç zaman sağalmayacaq...

O qəm-kədərli xatirələr heç zaman yaddaşımızdan silinməyəcək, unutmayacağıq o günləri...

Bilirsinizmi, keçmiş məcburi köçkün uşaqların yaşadığı bu dərd-qəmə, mənəvi məhrumiyyətlərə məlhəm olan, bizə təsəlli verən nədir?!

Qarabağda, Şərqi Zəngəzurda yeni doğulan azərbaycanlı körpələrin hayqırışları...

Valideynləri ilə birgə ata yurdlarına qayıdan keçmiş məcburi köçkün uşaqların azad torpaqlara səfər edən qalib Lider İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın qarşısına sevinclə qaçmalarına şahidlik etməyimiz...

Bax, doğma od-ocaqlarında xoşbəxt yaşama başlayan həmin uşaqların sevincində biz "müharibə", "köçkün" uşaqlarının da kədəri itir...

Bizim itirilmiş uşaqlığımız Qarabağda, Şərqi Zəngəzurda qaçan, oynayan, gülüb şənlənən balaların timsalında yenidən yaşanır, başlanğıcına qayıdır...

Biz də o uşaqlara qoşuluruq...

Sübh tezdən dağda-daşda yanıqlı bir ahənglə əks-səda verən çoban tütəyinin səsinə oyanırıq, quzuları qabağımıza qatıb üz tuturuq Qarabağ və Şərqi Zəngəzurun ucsuz-bucaqsız, al-əlvan güllərdən xalı sərilmiş çəmənliklərinə... Quzular otlayır, bizsə gül-çiçəkdən çələng hörürük, kəpənəklərlə yarışırıq...

Köhlən atlarımızı başı qardan çalmalı dağlarla zümrüd çəmənlərin birləşdiyi yerə, "Fatma nənənin qurduğu göy qurşağı"nın altındakı arzular körpüsünə sarı çapırıq.

Sıldırımlara dırmaşıb nəhəng yarğanların dibi ilə kükrəyə-kükrəyə axan çaylara tamaşa edirik, ənginliklərdə süzən qartalların qıy səsinə qulaq veririk.

Bu əsrarəngiz təbiətin qoynunda zamanı unuduruq, artıq toran qarışır, dağları dolanan süd kimi bəyaz duman seli ətrafımızı bürüyür.

Bir də görürük analarımız nigarançılıqla bizi səsləyir... "Hardasınız, ay bala?"

Evlərimizə tələsirik, elə acımışıq ki... Nənəmizin sacda bişirdiyi isti yuxa çörəyinin arasına motal pendiri də qoyub ləzzətlə yeyirik...

Sonra... Pəncərədən düşən ay işığının sehirli ahəngi ilə şirin röyalara dalırıq...

İşıqlı sabahlara qədəm qoyuruq...

Beləcə düz bir qərinədən sonra bizim də ruhumuz, mənəviyyatımız dinclik tapır.

Ümidlərimiz işarır, 30 ilin o üzündən həsrətlə boylanan hüznlü arzularımız dirçəlir.

Düşmən tapdağından azad edilən yurdlarımızda tikilən uşaq bağçalarını, məktəbləri görmək bizə böyük təsəlli olur. Tezliklə burada doğum evləri də tikiləcək.

Bir zamanlar top-tüfəng, ah-nalə səsi yüksələn bu yerlərdə indi şadlıq qurulur, toylar çalınır, gəlinlər gətirilir...

Artıq uşaqlarımız vaqon, çadır, yataqxana dəyişmir, öz evlərində, öz torpaqlarında, öz vətənlərində əbədi yaşayırlar.

Artıq onlar "köçkün" uşaqlar deyillər.

Qalib Azərbaycanın qürurlu vətəndaşlarıdırlar!

*Bu, son 30 illik bir zaman kəsiyində bütün Azərbaycan uşaqlarının keçdiyi ağır, çətin, iztirablı, amma sonda xoşbəxtliklə bitən "müharibə uşaqlarından zəfər uşaqlarınadək" adlı gerçək həyat hekayəsidir...*

*O uşaqlar ki, müharibə gördülər, məcburi köçkünlüklə üzləşdilər, fiziki, maddi, mənəvi məhrumiyyətlərə düçar oldular, amma sınmadılar, inamlarını itirmədilər...*

*O uşaqlar ki, yeni nəsil olaraq qəzəb, qisas hissi ilə böyüdülər, Qarabağı, Şərqi Zəngəzuru azadlığına qovuşdurdular, Azərbaycana zəfər yaşatdılar...*

*Biz, keçmiş məcburi köçkün uşaqların yarımçıq arzularını həyata keçirdilər...*

*Bizi "köçkün" adından qurtardılar.*

*Yenidən şuşalı, xankəndili, kəlbəcərli, ağdamlı, laçınlı, zəngilanlı, cəbrayıllı, füzulili, qubadlılı... xoşbəxtlər etdilər.*

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

## 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür







# Mehriban xanımın diqqəti və qayğısı ilə...

## Əlil uşaqlarımız sağlam həyata şans qazanırlar

*Onlar dünyanın ən dəyərli varlıqlarıdırlar...*

*Onlar cəmiyyətin təməli, dövlətin kiçik modeli adlandırılan ailənin sevinci, qürur qaynağıdırlar...*

*Hamıdan çox onların müdafiəyə, qayğıya, sevgiyə ehtiyacları var...*

*Onların gözləri ilə dünyaya baxdıqda xoşbəxtliyi, gözəlliyi, sevinci hiss edirsən...*

*Bu gün onların günüdür - Uşaqların Beynəlxalq Müdafiəsi Günü.*

Bu məqsədlə yolumuzu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin 1 saylı 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər üçün sosial xidmət müəssisəsindən saldıq.

Həyətə daxil olan kimi ilk diqqəti çəkən rəngbərəng şarlarla bəzədilmiş ərazi, yaşıllıqda yaradılmış piknik ab-havası olur.

Bizi qarşılayan müəssisənin direktoru Sevinc Məlikova Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı səhər saatlarında tədbirin keçirildiyini diqqətə çatdırır.
















### Dövlət qayğısı, günərzi mərkəzlər, valideynlərə dəstək...

Bu müəssisə 1984-cü ildə Mərdəkan qəsəbəsində fəaliyyətə başlayıb. Adı bir neçə dəfə dəyişdirilən mərkəz 2010-cu ildə Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunaraq istifadəyə verilib. Normativ üzrə 200 çarpayılıq olmaqla, əqli və fiziki sağlamlığı məhdud uşaqların daimi dövlət himayəsində yaşaması üçün yaradılıb.

Direktorla söhbətimiz zamanı o, bizə müəssisənin iş prinsipi, qəbul prosesi barədə məlumat verərək qeyd edir ki, sosial xidmət müəssisəsinə uşaqların qəbulu 5 yaşdan 18 yaşadəkdir. "Mərkəzdə stasionar və yarımstasionar (günərzi) şöbələr fəaliyyət göstərir. Uşaqlar qidalanma, geyim, tibbi və digər bütün xidmətlərlə daim təmin olunurlar. Ümumilikdə valideynlərə dəstək üçün müəssisə daxilində iki günərzi qayğı mərkəzi fəaliyyət göstərir ki, onlardan biri burada, digəri isə Pirallahıda yerləşir".

Hazırda müəssisənin stasionar şöbəsində 153, yarımstasionarda isə 17 uşaq olduğunu deyən S.Məlikova qeyd edir ki, onlar bütün sosial xidmətlərlə, dövlət qayğısı ilə əhatə olunurlar.

Müəssisəyə uşaqların qəbulu üçün vətəndaşlar ərazi üzrə Sosial Xidmətlər Agentliyinin filiallarına və ya DOST mərkəzlərinə müraciət etməlidirlər. Tələb olunan sənədlər təqdim olunduqdan sonra uşağın göstəriciləri uyğun gəlirsə, Elm və Təhsil Nazirliyinin xüsusi məktəblərində təhsil almadığı halda müəssisəyə qəbul olunur. İlkin mərhələdə uşaqların psixoloji qiymətləndirilməsi həyata keçirilir. Daha sonra valideynlərin istəyinə, şəraitinə, sosial vəziyyətinə əsasən, uşaqların stasionar və ya yarımstasionarda yerləşdirilməsinə qərar verilir. "Çalışırıq ki, uşaqlar günərzi qayğı mərkəzlərinə yerləşdirilsin, ailədən qırılmasın. Bütün hallarda ailə qayğısı vacibdir. Mehriban xanım Əliyeva dəfələrlə öz çıxışında qeyd edib ki, heç bir müəssisə ailə qayğısını əvəz edə bilməz. Müəssisələşmənin qarşısını nə qədər ala bilsək, o qədər yaxşıdır. Leyla xanım Əliyeva da müəssisəyə tez-tez baş çəkir, uşaqlarla maraqlı vaxt keçirir", - deyə müəssisə rəhbəri əlavə edir.

Xüsusi uşaqlarla işləməyin böyük məsuliyyət tələb etməsindən danışan S.Məlikova vurğulayır ki, mərkəzdə mühafizəçidən, sosial xidmət işçilərindən rəhbər heyətə kimi hər kəs səbir nümayiş etdirməlidir: "Sağlamlığından asılı olmayaraq, uşaqlarla işləmək, onlara qayğı göstərmək səbirli olmağı tələb edir. Bizim sahədə bu, çox vacibdir, çünki ən həssas əhali qrupu ilə işləyirik".

### Şuşa şəhərinin maketi, Qız qalası və digər əl işləri...

Uşaq müəssisəyə qəbul olunandan sonra bir həftə ərzində sosial işçilər onun bacarığını qiymətləndirirlər. Bundan sonra həmin uşaqda nəyi inkişaf etdirmək, nəyin üzərində işləmək lazım olduğu müəyyənləşir. Qiymətləndirmə əsasında reabilitasiyaya cəlb olunurlar. Bundan başqa, ehtiyac yaranarsa, uşaqlara dərman müalicəsi də tətbiq olunur.

Uşaqlarda zəruri fiziki vərdişləri formalaşdırmaq, onların istedadlarını, bacarıqlarını, əmək qabiliyyətlərini inkişaf etdirmək üçün müəssisədə dərnəklər fəaliyyət göstərir. Elə biz də direktorla söhbətimizə davam edərək həmin dərnəklərdə uşaqların fəaliyyətini izləyirik.

İlk daxil olduğumuz Əl işi otağında uşaqların muncuqdan, müxtəlif rəngli kağızlardan, ağac qabığından hazırladıqları bayram atributları, Şuşa şəhərinin maketi, Qız qalası və digər əl işləri ilə qarşılaşırıq.

Daha sonra Sevinc xanımla digər otaqlara baş çəkirik. Əmək otağında qızların parça üzərində muncuqlu tikişlə məşğul olduqlarını görürük. 17 ildir müəssisədə çalışan metodist Lətafət Əliyeva bu bacarıqların uşaqlarda formalaşması üçün məyyən vaxt tələb olunduğunu qeyd edir. O bildirir ki, onların hansı işlə məşğul olmasına fiziki vəziyyətlərinə əsasən qərar verilir. Yəni elə uşaq var ki, qayçıdan, iynədən istifadə edə bilmir.

L.Əliyeva qeyd edir ki, 2010-cu ildə müəssisədə əsaslı təmir işlərindən sonra hər bir şərait yaradılıb: "Mehriban xanımın diqqət və qayğısını hər zaman hiss edirik. Valideyn himayəsindən məhrum, əlil uşaqlara xüsusi diqqəti, bu sahədə həyata keçirdiyi layihələr əvəzolunmazdır. Mehriban xanım Əliyevanın tapşırığı ilə uşaqların sağlam, xoşbəxt və firavan həyat sürmələri üçün müəssisədə lazımi şərait yaradılıb. Fond tərəfindən aparılan yenidənqurma işlərindən sonra uşaqlarımız daha rahat, müasir binada yaşayır, həm də həyat dərslərini öyrənirlər".

Daha sonra üz tutduğumuz emalatxanada uşaqların hazır qəlibdən çıxmış tökmələri rəngləmələri ilə rastlaşırıq. Metodist Zoya Allahverdiyeva isə onları yönləndirirdi. Söhbətimiz əsnasında o qeyd edir ki, uşaqların bu vərdişlərə yiyələnməsi onların qavrama səviyyəsindən, həvəslərindən asılı olaraq dəyişir. Rəngləmə ilə məşğul olan Azad həm də bizə "Azərbaycan" şeirini söyləyir. Onu dinlədikdən sonra isə azyaşlılar üçün olan oyun otağına keçirik. Burada bizi Fəqan ürəkdən gülüşü ilə qarşılayır. Bizimlə ünsiyyətə, söhbətə can atır. Gözlərindəki sevinc hissini bir anlıq görmək isə hər şeyə dəyər. Onlarla sağollaşıb digər dərnəklərə baş çəkirik.

### Uşaqlar yaşyarımdan psixoloji seanslara cəlb olunmalıdırlar

Psixoloq Könül Babaşzadə ilə söhbətimiz zamanı o qeyd edir ki, uşaqlarla iş əsasən fərdi şəkildə həyata keçirilir, amma qrup halında da seanslar baş tutur. "Ümumiyyətlə, proqram uşaqdan-uşağa dəyişir. Eləsi var ki, onda reaktivlik daha çoxdur. Eyniləşdirmə, fərqləndirmə, qruplaşdırma mexanizmi ilə aparılan seanslarda fiqurlardan istifadə olunur. Eyni zamanda art, əmək, musiqi, şəkil üzrə nağıl, kuklalardan istifadə etməklə terapiya növləri tətbiq edilir. Müəssisəyə 5 yaşdan yuxarı uşaqlar qəbul edildiyi üçün onlar gələndə artıq diaqnozları məlum olur", - deyə psixoloq bildirir.

K.Babaşzadə deyir ki, uşaqlarla onların inkişaflarına uyğun, qiymətləndirmə vərəqələrinə əsasən iş aparılır. Terapiyalar onların bacarıqlarına, inkişaflarına görə dəyişir: "İlk olaraq adaptasiya, sosiallıq, davranış və diqqət üzərinə fokuslanıram. Uşaqların bacarıqlarının inkişafı diaqnozun ağırlıq dərəcəsindən asılı olaraq, bir aydan bir ilə kimi dəyişə bilir".

Psixoloq həmçinin xüsusi qayğıya ehtiyacı olan uşaqların valideynləri üçün tövsiyələrini də açıqladı. "Ailələrdən xahiş edirəm ki, uşaq dünyaya gələndən sonra diqqətli olsunlar. Bəzən "camaat nə deyər?" düşünərək uşağın müalicəsini, müəssisəyə yerləşdirilməsini gecikdirirlər. Uşaqlar yaşyarımdan psixoloji seanslara cəlb olunsalar, valideyn nəzarəti olsa, o zaman ağırlaşmazlar. Onların özünəxidmət bacarıqları formalaşmış olar. Bu həmçinin valideyn üçün də rahat olar", - deyə Könül xanım vurğulayır.

Psixoloq otağından ayrılaraq yolumuza davam edirik. Bizi müşayiət edən S.Məlikova deyir ki, stasionarda yaşayan uşaqlarla valideynləri istədiyi vaxt görüşə, hətta ərizə yazaraq istədiyi müddətə ev məzuniyyətinə götürə bilirlər.

Musiqi sədalarının yayıldığı musiqi zalına üz tuturuq. Burada kimisi ifa edir, kimisi rəqs edirdi. Müəllim Natəvan Əliyeva bildirir ki, uşaqların bacarıqlarına, həvəslərinə əsasən, onlara rəqs, müxtəlif musiqi alətlərində ifa etmək öyrədilir. Bəziləri bir neçə dərsə, digərləri isə bir neçə aya bu bacarıqlara yiyələnə bilirlər.

Ümumiyyətlə, əlilliyi olan uşaqların uğurları barədə çox eşidirik. Həm musiqi, həm idman, həm də digər sahələrdə. Elə Sevinc xanım da bildirir ki, müəssisənin uşaqları həm yerli, həm də beynəlxalq yarışlarda, festivallarda, tədbirlərdə iştirak edir və uğurlu nəticələr qazanırlar.

Müəssisənin idman müəllimi Fərid Cəbrayılov deyir ki, uşaqlara stolüstü tennis, boccia, futbol kimi idman növləri üzrə təlimlər keçirilir. "Xüsusi uşaqlarla işləməyin çətinliyi yoxdur, sadəcə daha artıq diqqət və qayğı lazımdır. Bu, böyük məsuliyyət tələb edir. Digərlərinin bir-iki dəfəyə götürmə qabiliyyəti varsa, həssas uşaqlara bir neçə dəfə təkrarlamaq, səbirlə izah etmək lazımdır. Təlimlər, məşqlər əsasında belə uşaqlar bir neçə ay ərzində müəyyən bacarıqlara yiyələnərək milli və ya beynəlxalq idman yarışlarında iştirak edə bilirlər", - deyə o bildirir.

Əlilliyi olan uşaqların iştirak etdiyi yarışlardan biri boccia idman növüdür. F.Cəbrayılov qeyd edir ki, bu idman növü üçün uşaqların ən azı 3-6 ay çalışması lazımdır. Oyun uzunluğu 24-28 metr, eni 2.5-4 metr olan düzbucaqlı meydançada həyata keçirilir. İki topdan istifadə olunur - uşaqların əlillik dərəcəsinə uyğun olaraq biri yumşaq, digəri bərk olur. Toplar iki oyunçu arasında hədəfə atılaraq oynanılır.

### Sevginin günü yoxdur

Müəssisədə uşaqların nitq qüsurlarının aradan qaldırılması üçün loqoped də fəaliyyət göstərir. Səbuhi Soltanov deyir ki, ilk mərhələdə uşaqların nitq qüsurları ilə bağlı 3 aylıq proqram həyata keçirilir. Ehtiyac olarsa, növbəti baxışa götürülür. Bundan əlavə, diaqnozundan, danışıq qüsurundan asılı olaraq, reabilitasiya proqramı seçilir və ona uyğun bərpa prosesi keçirilir. "Bəzi uşaqlarda daha tez nəticə alınır, bəzilərində 3 aydan çox çəkə bilər. Yaxın və uzaq hədəflərimiz olur. Məsələn, samit səslərin tələffüzündə problem olanda korreksiya proqramı daha tez bitir. Amma autizm sindromlu, ümumilikdə inkişaf pozuntusu olan uşaqlarda proqram daha uzun çəkir. Serebral iflicli uşaqlarda dizartriya nitq qüsuru olur ki, bu zaman işin əsas istiqaməti artikulyar motorikanın aktivləşdirilməsi, tək-tək səslərin korreksiyasıdır. Daha erkən yaşlarda nitq qüsurlarının korreksiyasına başlamaq yaxşı nəticə verir. Valideynlər bu baxımdan diqqətli olmalıdırlar", - deyə loqoped vurğulayır.

Müəssisəni gəzdikcə hər otaqdan yayılan gülüş səsləri, təbəssümlə bizi qarşılamaları isə saatların necə keçdiyini unutdurur. Biz də onların rəqsini izləyir, əl çalır, gülüşlərinə qoşulur, onlarla birlikdə uşaq olmağa, həm də sevgimizi paylaşmağa çalışırıq.

*Amma nə olursa-olsun, heç nə onların verdiyi müsbət auranı, gözlərindəki saf baxışları, kiçik qəlblərindəki sevgini əvəz edə bilmir...*

*Yalnız bir gün deyil, hər gün bu sevginin qarşılığını verməli, onları qorumalı və sevməliyik!*

***Əsmər QARDAŞXANOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# III Beynəlxalq Minatəmizləmə Konfransı işini başa çatdırıb









**Bakıda keçirilən "Minaların ətraf mühitə təsirinin azaldılması: Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusuna həsr edilmiş III Beynəlxalq Minatəmizləmə Konfransı başa çatıb.**

AZƏRTAC xəbər verir ki, konfransın ikinci günündə çıxış edən Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Azərbaycanın Ermənistanla sülh razılaşmasına yaxın olduğunu qeyd edərək deyib: "Ən əsas odur ki, Azərbaycanın suverenliyi tam bərpa olunub. Ermənistanla delimitasiya işlərində irəliləyişlər var. Lakin məcburi köçkünlərin öz yurdlarına qaytarılması, yenidənqurma işləri mina səbəbindən ləngiyir. Azərbaycan minalarla çirklənməyə görə dünyada ilk beşlikdədir. 2020-ci ildə 44 günlük müharibə bitdikdən sonra Azərbaycanın 361 vətəndaşı mina qurbanı olub. Təəssüf ki, bu rəqəm hər həftə artır. Düzgün xəritələrin verilməməsi problemi daha da dərinləşdirir. Mina fəaliyyəti insanlar üçün təhlükəsiz şəraitin yaradılmasına hədəflənib. Həmin fəaliyyət yenidənqurma işlərinin, sosial siyasətin əsasını təşkil edir. Bu prosesə illər lazımdır. Lakin Azərbaycanın bu istiqamətdə işləyən qurumu - ANAMA məhsuldar fəaliyyət göstərir. Xanımlardan ibarət minatəmizləyənlər də var. Lakin bu istiqamətdə ölkəmizə beynəlxalq dəstək azdır. İnanırıq ki, beynəlxalq ictimaiyyət bu yükün bölüşdürülməsinə kömək edəcək".

BMT-nin Sülh Əməliyyatları Departamentində Qanunun aliliyi və təhlükəsizlik institutları üzrə baş katibin köməkçisi Aleksandr Zuyev konfrans iştirakçılarına videomüraciətində Azərbaycan hökumətinə ətraf mühiti mühafizə sahəsində həyata keçirdiyi tədbirlərə, xüsusilə mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətləri 18-ci Dayanıqlı İnkişaf Məqsədi (DİM) kimi təqdim etdiyinə görə təşəkkür edib: "Azərbaycanın COP29-a evsahibliyi etməsi onu göstərir ki, ölkə ətraf mühitin mühafizəsini ali məqsəd kimi görür. Azərbaycanın minatəmizləmə fəaliyyətini - xüsusilə ANAMA-nın gördüyü işləri yüksək qiymətləndirirəm. Bu yaxınlarda beynəlxalq mina fəaliyyətləri standartlarının yenilənməsi dərc olunacaq. Ümumilikdə, mina problemi ilə ətraf mühit arasında əlaqəni qabartmaq vacibdir".

Açılış nitqlərindən sonra konfrans panel sessiyalarda davam edib.

"Ətraf mühitin davamlı reabilitasiyası üçün milli bacarıqların yaradılması", "Təhlükəsiz və "yaşıl gələcək" üçün resurs səfərbərliyi və mina fəaliyyəti vasitəsilə inklüziv transformasiya" və "Yaşıl davamlı inkişaf" üçün siyasət inteqrasiyası və təbliğat" mövzularında keçirilən panel sessiyalarda minaların ətraf mühitə vurduğu ziyandan, insanların həyatı üçün yaratdığı təhlükələrdən, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma işlərinin sürətləndirilməsi və sakinlərin qayıdışı üçün beynəlxalq humanitar minatəmizləmə fəaliyyətinin aparılmasının vacibliyindən söhbət açılıb, ANAMA-nın mina təmizləmə fəaliyyəti yüksək qiymətləndirilib.

Sonra konfransın yekununa dair bəyannamə qəbul edilib. Bəyannaməni BMT İnkişaf Proqramının Qlobal mina təmizləmə fəaliyyəti və inkişafı üzrə müşaviri Ştayner Essen oxuyub.

Sonda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsi müdirinin müavini Nüsrət Süleymanov Azərbaycanın minatəmizləmə sahəsində böyük təcrübə əldə etdiyini diqqətə çatdıraraq deyib: "Biz bu təcrübəni eyni problemdən əziyyət çəkən digər ölkələrlə bölüşməyə hazırıq. Həmin təcrübəni əldə etmək bizə baha başa gəldi".

Minalar və partlamamış hərbi sursatların milliyyətindən asılı olmayaraq insanların həyatlarına son qoyduğunu qeyd edən N.Süleymanov, onların su və torpaq resurslarına ciddi təhdid olduğunu da vurğulayıb. "Dünyada konfliktlərin artdığı vaxtda biz birlikdə müharibələrin fəsadlarına qarşı mübarizə aparmalıyıq. Həmin fəsadlardan ən mənfuru minalardır.

Məlumdur ki, bu il Azərbaycanda COP29 konfransı keçiriləcək. Biz bu konfransda iqlim dəyişikliyi məsələsi ilə yanaşı, mina problemini də qaldırmağı özümüzə borc bilirik. İqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək üçün mina problemini həll etməliyik", - deyə N.Süleymanov fikirlərinə yekun vurub.

Bununla da konfrans işini başa çatdırıb.

Xatırladaq ki, konfransın ilk günü Zəngilanda, ikinci günü isə Bakıda keçirilib.

# Bakı Enerji Həftəsi bizi COP29-a bir addım da yaxınlaşdıracaq

## Bu tədbirin proqramında ekologiya əsas mövzulardandır

**Paytaxtımızda iyunun 4-də öz işinə başlayacaq Bakı Enerji Həftəsi ənənəvi enerji resursları sənayesini inkişaf etməkdə olan "yaşıl enerji" istiqamətləri ilə birləşdirən sahədə irəliləyişlərə və təcrübələrə zəmin yaradacaq. Belə ki, bir çox şirkət, o cümlədən tədbir iştirakçılarının 15 faizini təşkil edən debütçü kampaniyaların əksəriyyəti Azərbaycanın bərpaolunan enerji hədəflərinə maraq göstərirlər.**



2024-cü ilin Bakı Enerji Həftəsi ölkəmizin evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 ərəfəsində keçiriləcək. Prezident İlham Əliyevin sərəncamı ilə bu il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu əlamətdar hadisələrin hər biri Bakı Enerji Həftəsinin tədbirlər proqramında öz əksini tapacaq.

Artıq 30 ildir Bakıda Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi keçirilir. Son dövrdə bununla yanaşı, eyniadlı forum və energetika sərgisi də təşkil olunurdu. İndi bu üç tədbir Bakı Enerji Həftəsində birləşdirilir.

Azərbaycanın bu və digər beynəlxalq işgüzar tədbirlərin təşkil edildiyi mərkəz olduğu artıq hər kəsə yaxşı məlumdur. Ölkəmiz bunun üçün həm geniş infrastruktura, həm də zəngin təşkilatçılıq təcrübəsinə malikdir. COP29 kimi mötəbər bir tədbirin keçirilməsinin Azərbaycana həvalə edilməsi də məhz ölkəmizin dünyada beynəlxalq və genişmiqyaslı tədbirlərin uğurlu təşkilatçısı statusunu bir daha təsdiqləyir. Belə genişmiqyaslı hadisə ərəfəsində enerji sektoru nümayəndələrini bir araya gətirən Bakı Enerji Həftəsi Azərbaycanın enerji sektorundakı rolunu və dünya enerji təhlükəsizliyinə verdiyi töhfəni də bir daha vurğulayacaq.

Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgisində, adından da göründüyü kimi, beynəlxalq və yerli şirkətlərin energetika, o cümlədən "yaşıl enerji" mənbələrinin inkişafı və istifadəsi sahəsindəki yeniliklər və bununla bağlı təkliflər gündəmdə olacaq. Sərgidə günəş və külək enerjisi, geotermal enerji, istilik energetikası, nüvə enerjisi, maşınqayırma və enerji avadanlıqları, elektrik nəqliyyat vasitələri və elektromobillər, enerji və resurslara qənaət edən texnologiyalar, digər sektorlar üzrə məhsul və xidmətlər, eləcə də yeni layihələr nümayiş etdiriləcək.

Bunu sərgi çərçivəsində təşkil olunacaq bir sıra sessiyalar və panel müzakirələri də göstərəcək. Belə ki, tədbirin keçirildiyi günlərdə "Stereotipləri qıraraq: Enerji həllərinin formatlaşdırılması", "Yeni texnologiyalar və rəqəmsallaşma", "İrəliyə doğru yol açmaq: eko-avtomobilin gələcəyi və Azərbaycanda elektromobillərin artan populyarlığı", "Radioaktiv maddələrin nəqli zamanı radiasiya təhlükəsizliyinin təmin edilməsi", "Enerji sənayesində süni intellekt pionerləri", "Qaz dəyər zəncirində karbonun rolu və tendensiyaların gələcəkdə karbon bazarlarını formalaşdırma yolları" və digər mövzular müzakirə ediləcək.

Bakı Enerji Forumunda da Azərbaycan və Xəzər regionu üçün vacib enerji məsələləri gündəmdə olacaq. 600-dən çox nümayəndənin qatılacağı bu tədbirdə "Enerji təhlükəsizliyi və dayanıqlılığa dair beynəlxalq əməkdaşlıq", "Enerji təhlükəsizliyi 2.0", "Xəzər regionunda kəşfiyyat və hasilat imkanları", "Davamlı Enerji: Xəzər regionunda Yaşıl Enerji Potensialı", "Yeni texnologiyalar və rəqəmsallaşdırma", "Qaz dialoqu: Enerji böhranı zamanı qaz təchizatının rolu", "Xəzər regionunda kəşfiyyat və hasilat imkanları", "Neft axınları: Kross-logistika və Azərbaycanda infrastrukturun inkişafı", "Uğurlu enerji keçidində insan kapitalının rolu" kimi mövzular müzakirə ediləcək.

Bakı Enerji Forumunun proqramına "Yaşıl dünya naminə. COP29 strateji inkişaf yolları" adlı xüsusi sessiya da əlavə olunub. Sessiyada məruzəçi qismində iştirak etmək üçün digər ölkələrdən xüsusi qonaqlar dəvət edilib.

Ümumiyyətlə, ekoloji problemlər və bu problemlərin Yer kürəsi üçün yaratdığı təhlükələr, onların qarşısının alınması yolları, eləcə də "yaşıl enerji" kimi mövzular Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlər proqramında xüsusi yer tutur. Tullantıların qarşısının alınmasına yönəlmiş prinsiplər toplusu olan "Zero Waste" prinsipinə sadiq qalaraq, 2024-cü ildə də Bakı Enerji Forumu zamanı çap vasitələrindən istifadə minimum səviyyəyə qədər azaldılaraq, əsasən elektron vasitələrə üstünlük veriləcək. Beynəlxalq "Zero Food Waste" təşəbbüsü dəstəklənərək, forum zamanı qidadan optimal istifadə prinsipi də tətbiq ediləcək.

Bundan əlavə, Bakı Enerji Forumu çərçivəsində "Mini-Boss" məktəbinin tələbələrinin "Ecoleaf" adlı startapı nümayiş olunacaq. Startapın ideyası başlıq hissəsində toxum olan qələmlər və tərkibində bitki toxumu olan qeyd dəftərləridir. Forumda iştirak edən nümayəndələrə də bu ekoloji təmiz məhsullar təqdim olunacaq.

Bir sözlə, Bakı Enerji Həftəsi bizi COP29-a bir addım da yaxınlaşdıracaq.

***Flora SADIQLI, "Azərbaycan"***

# Minaların ətraf mühitə təsirinin azaldılması ilə bağlı 3-cü Beynəlxalq Konfransın bəyannaməsi qəbul edilib

**"Minaların ətraf mühitə təsirinin azaldılması - Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda Zəngilanda və Bakıda keçirilən 3-cü Beynəlxalq Konfransın yekununda bəyannamə qəbul olunub.**

AZƏRTAC bəyannaməni təqdim edir.

"Biz, 30-31 may 2024-cü ildə Azərbaycanın Zəngilan rayonunda və Bakı şəhərində keçirilən Minatəmizləmə üzrə 3-cü Beynəlxalq Konfransın iştirakçıları bir araya gələrək təhlükəsiz və "yaşıl gələcək" üçün minaların ətraf mühitə təsirinin azaldılması və resursların səfərbər edilməsi məsələlərini müzakirə etdik.

Biz - Mülki şəxslərin, o cümlədən uşaqların, qadınların və digər qeyri-döyüşçü əhalinin həyatına son qoymağa, şikəst etməyə və yaralamağa davam edən minaların və müharibənin partlayıcı qalıqlarının dağıdıcı və fərq qoymadan təsirləri ilə bağlı dərin narahatlıq ifadə edərək;

Minalarla çirklənmənin ətraf mühitə əhəmiyyətli dərəcədə mənfi təsir göstərdiyini, bununla da müvafiq tədbirlər vasitəsilə minalarla çirklənmənin mümkün mənfi təsirlərinin qarşısının alınmasının və yumşaldılmasının zəruri olduğunu qəbul edərək;

İqlim dəyişmələrinin partlayıcı hərbi sursatla bağlı təhlükələrin azaldılması səylərinə mənfi təsir göstərdiyini nəzərə alaraq;

"Piyada əleyhinə minaların istifadəsi, yığılması, istehsalı və ötürülməsinin qadağan edilməsi və onların məhv edilməsi haqqında Konvensiya" ("Ottava Konvensiyası") və "Kasetli sursatlar haqqında Konvensiya" ("Oslo Konvensiyası") da daxil olmaqla, minaların və PHS-nin istifadəsini tənzimləyən və ya qadağan edən mövcud beynəlxalq hüquqi sənədlərin prinsip və dəyərlərini qəbul edərək, eyni zamanda hamını bu sənədlərə rəsmi riayət olunması istiqamətində addımlar atmağa təşviq edərək;

BMT Təhlükəsizlik Şurasının 2017-ci il 30 iyun tarixli 2365 (2017) saylı qətnaməsini və onun minatəmizləmə fəaliyyəti ilə bağlı bütün əvvəlki qətnamələrini xatırladaraq;

BMT Baş Assambleyasının 2023-cü il 7 dekabr tarixli 78/70 saylı qətnaməsini və onun minatəmizləmə fəaliyyətinə dəstəklə bağlı bütün əvvəlki qətnamələrini xatırladaraq;

Silahlı münaqişələr zamanı mədəni sərvətlərin qorunması üzrə 1954-cü il Haaqa Konvensiyasına tərəf ölkələrin on beşinci iclasında (2023) qəbul edilmiş "Minaların mədəni irsə təsiri" adlı UNESCO-nun qətnaməsini alqışlayaraq;

BMT-nin Baş katibinin 2023-cü il iyulun 31-də dərc edilmiş, minalarla çirklənmə və iqlim dəyişmələri arasında dərinləşən qarşılıqlı əlaqənin qeyd olunduğu A/78/259 saylı "Minatəmizləmə fəaliyyətinə dəstək" adlı hesabatını nəzərə alaraq;

Birləşmiş Millətlər Təşkilatının Minatəmizləmə fəaliyyəti ilə bağlı Strategiyasını və Birləşmiş Millətlər Təşkilatının Minalardan təmizləmə zamanı Qurbanlara Yardım Siyasətini nəzərə alaraq;

"Minatəmizləmə fəaliyyətində ətraf mühitin idarə edilməsi" Beynəlxalq Mina Təmizləmə Standartını IMAS 07.13 nəzərə alaraq;

2022-ci və 2023-cü illərdə Azərbaycanda keçirilmiş Minatəmizləmə fəaliyyəti üzrə əvvəlki beynəlxalq konfransları və onların yekun sənədlərini təqdir edərək;

Minaların və müharibənin partlayıcı qalıqlarının mülki əhali üçün ciddi və davamlı sosial-iqtisadi təsirləri ilə bağlı narahatlığı ifadə edərək;

Minatəmizləmə fəaliyyətinin sülh quruculuğu prosesində etimadı möhkəmləndirən dəyərli tədbir olduğunu vurğulayaraq;

1. Humanitar minatəmizləmənin ekoloji aspektlərinin minatəmizləmə ilə bağlı səylərə inteqrasiya olunmasına çağırırıq;

2. Texniki, maliyyə və maddi yardım, təlimlər də daxil olmaqla, adekvat və müvafiq resursların ayrılması, o cümlədən minatəmizləmə üsulları və texnologiyaları üzrə tədqiqat və inkişafı təşviq etməklə mina qurbanlarına yardım, minalardan təmizləmə və risklərlə bağlı maarifləndirilmə kimi onun bütün sahələrində minatəmizləmə fəaliyyətini dəstəkləmək üçün bütün dövlətləri və digər maraqlı tərəfləri buna dəvət edirik;

3. Minaların və müharibənin partlayıcı qalıqlarının səbəb olduğu itkilərin qarşısının alınması və mina qurbanlarına tibbi xidmət, reabilitasiya və cəmiyyətə reinteqrasiya daxil olmaqla fəal dəstəyin təmin edilməsi ilə bağlı kompleks tədbirlərin görülməsinin zəruri olduğunu vurğulayırıq, dövlətləri və müvafiq təşkilatları bu səylər üçün resurslar ayırmağa və təcrübələrini bölüşməyə çağırırıq;

4. Minatəmizləmə fəaliyyətinin ətraf mühitlə bağlı milli və beynəlxalq strategiyalara inteqrasiyasını təmin etməklə, iqlim dəyişmələrinin təsirinin azaldılması, uyğunlaşma və dayanıqlılığa dair müzakirələrə və strategiyalara minatəmizləmə fəaliyyətini daxil etməklə, Birləşmiş Millətlər Təşkilatının iqlim konfranslarını minaların və müharibənin partlayıcı qalıqlarının ətraf mühitə təsirini qəbul etməyə və həll etməyə, həmin sahə üçün resursların ayrılmasına çağırırıq;

5. Minatəmizləmə fəaliyyətinin 2030-cu il Gündəliyinə daxil edilməsinin vacibliyini vurğulayır və bu məsələnin cari ilin sonunda keçiriləcək Gələcəyin Sammitində nəzərdən keçirilməsini tövsiyə edirik;

6. Dövlətləri və müvafiq maraqlı tərəfləri bilik, təcrübə və texnologiya sahələrində mübadilə vasitəsilə əməkdaşlığı genişləndirməyə çağırırıq; bu xüsusda, biz Azərbaycan Respublikası ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) arasında Minatəmizləmə fəaliyyəti ilə əlaqədar Mükəmməllik Mərkəzinin yaradılmasına dair imzalanmış niyyət bəyanatını alqışlayırıq;

7. BMT-nin üzv dövlətlərini minatəmizləmə ilə bağlı, o cümlədən minaların basdırıldığı yerlər haqqında məlumat mübadiləsinə dair müvafiq beynəlxalq öhdəliklərinə əməl etməyə çağırırıq;

8. Minaların və müharibənin partlayıcı qalıqlarının mülki əhali üçün ciddi təhlükə yaratdığı, eləcə də ətraf mühitə, ərzaq təhlükəsizliyinə və daha geniş sosial və iqtisadi inkişafa əngəl törətdiyi ölkələrdə milli minatəmizləmə potensialının yaradılmasına və inkişafına dəstək vermək məqsədilə dövlətləri və müvafiq təşkilatları səylərini davam etdirməyə çağırırıq;

9. Təsirə məruz qalmış dövlətləri, BMT-nin aidiyyəti qurumlarını, minatəmizləmə fəaliyyəti ilə məşğul olan regional təşkilatları və qurumları, QHT-ləri minalarla çirklənmənin mənfi təsirlərinin azaldılması istiqamətində səyləri və həll yollarını səfərbər etmək üçün minatəmizləmə fəaliyyətinin ekoloji aspektini proaktiv şəkildə aktuallaşdırmağa çağırırıq;

10. Bu konfransın keçirilməsinə hərtərəfli dəstəyinə və yüksək qonaqpərvərliyinə görə Azərbaycan Respublikasının Hökumətinə minnətdarlığımızı bildiririk. Biz həmçinin Azərbaycanla, eləcə də minadan zərər çəkmiş bütün ölkələrlə onların minalarla bağlı böyük probleminin həllində həmrəy olduğumuzu bildirir və beynəlxalq ictimaiyyəti Azərbaycanın humanitar minatəmizləmə sahəsində səylərini dəstəkləməyə çağırırıq;

11. 2024-cü il BMT-nin İqlim Dəyişmələri Konfransına (UNFCCC COP29) sədrliyində Azərbaycana uğurlar arzulayırıq".





**"Böyük qayıdış"**
**proqramı sürətlə icra olunur**





# Laçın şəhərinə yeni köç




**Vətən müharibəsindən dərhal sonra başladılan məqsədyönlü və genişmiqyaslı işlər sayəsində Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən başlayır. O cümlədən keçmiş məcburi köçkünlərin doğma yurda qayıdış prosesi sürətlə davam edir. Böyük qayıdışın əsas ünvanlarından biri Laçın rayonudur. Hazırda həm Laçın şəhərində, həm də rayonun Zabux və Sus kəndlərində daimi məskunlaşma var.**

Dünən Laçın şəhərinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə şəhərə daha 20 ailə - 68 nəfər köçürülüb. Bununla da Laçın şəhərində 513 ailə - 1906 nəfərin daimi məskunlaşması təmin edilib. Əzəli yurdlarına qovuşan ailələr Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşırlar.

İndiyədək Laçın şəhərində sakinlərin rifahının yüksəldilməsi və işlə təminatı istiqamətində mühüm tədbirlər görülüb, rahat və firavan həyat şəraiti üçün lazım olan infrastruktur yaradılıb və proses davam edir. Ərazilərin bərpası müasir yanaşmalar əsasında həyata keçirilir. Yaşayış məntəqələri "ağıllı şəhər" və "ağıllı kənd" konsepti ilə qurulur və burada sakinlərin rahatlığı üçün hər cür şərait yaradılır.

Laçınlıların istirahətinin səmərəli və maraqlı təşkili istiqamətində də tədbirlər həyata keçirilir. İşğaldan əvvəl Laçın şəhərində fəaliyyət göstərən kinoteatrın binası yenidən bərpa olunaraq istifadəyə verilib. İşğal dövründə ermənilər tərəfindən tamamilə dağıdılan kinoteatr binası 8 aya bərpa olunub.

Şəhərdə həmçinin Həkəri çayının sahilində bulvar yaradılıb. Burada çay üzərində körpü inşa edilib, ətrafında yaşıllıqlar salınıb. Onu da qeyd etmək lazımdır ki, artıq vətəndaşlar fərdi minik avtomobilləri ilə Laçın rayonuna səfər edə bilirlər. Laçın aeroportu istifadəyə verildikdən sonra şəhərə turist axınının çox olacağı gözlənilir.

İşğal dövründə Laçında tarixi-mədəni abidələr, Ağoğlan məbədi, Soltan Əhməd sarayı, Qız qəbri abidəsi və onlarla digər tarixi tikililər vandalizmə məruz qalıb ki, onlar da Heydər Əliyev Fondu tərəfindən bərpa olunur.

Qarabağda və Şərqi Zəngəzurda yeni infrastrukturların yaradılması, investorların cəlb edilməsi və digər mühüm amillər burada dayanıqlı məskunlaşmanın təmin olunması üçün böyük əhəmiyyət kəsb edir. Bu istiqamətdə həyata keçirilən layihələr sistemli xarakter daşıyır. Bunun nəticəsidir ki, artıq 1955 ailə - 7612 nəfər əzəli məskənlərinə qayıdıblar. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 513 ailə (1906 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 105 ailə (406 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində məskunlaşıb.

Azadlığına qovuşmuş torpaqlarımızda quruculuq işləri bundan sonra da yüksək səviyyədə və sürətlə həyata keçiriləcək. Bunun sayəsində isə tezliklə bütün keçmiş məcburi köçkünlər doğma yurdlarına dönəcəklər.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Ağdamda istehsal olunacaq ayaqqabılar xaricə də satılacaq

**"BAFCO İnvest" MMC tərəfindən Ağdam Sənaye Parkında ayaqqabı fabrikinin tikintisi yekunlaşıb, burada Almaniyadan gətirilmiş avadanlıqlar quraşdırılıb. Müəssisədə test nümunəsində məhsullar istehsal edilir.**




Yaxın vaxtlarda istehsal prosesinə başlanması nəzərdə tutulur. MMC-nin Marketinq və PR üzrə meneceri Aynurə Həsənova AZƏRTAC-a bildirib ki, Ağdam Sənaye Parkında 2,5 hektar ərazidə yerləşən müəssisə Almaniyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə müxtəlif təyinatlı çəkmə, tikinti və digər sahələrdə istifadə üçün nəzərdə tutulan dəmir ucluqlu və altlıqlı təhlükəsizlik ayaqqabılarının istehsalı üzrə ixtisaslaşıb. İnvestisiya dəyəri 10 milyon manatdan çox olan müəssisədə 120 iş yeri yaradılacaq.

Müəssisədə istehsal olunacaq ayaqqabılar payız-qış, yaz-yay mövsümlərinə, o cümlədən təhlükəsizlik xüsusiyyətlərinə müvafiq olacaq fərqli modellərə bölünür. Ayaqqabı növləri İSO 20345 standartının tələblərinə uyğun olaraq S1, S1P, S2, S3 təhlükəsizlik siniflərinə aiddir.

"BAFCO İnvest"in istehsal etdiyi poliuretan çəkmələr su, yağlar və müxtəlif kimyəvi maddələrə davamlıdır, bu səbəbdən kimya sənayesində və digər zərərli mühitlərdə istifadəsi üçün ideal seçimdir. Çəkmələrin elastik və düzgün anatomik forması, yüngül çəkisi və aşınmaya davamlılığı işdə qoruyucu xüsusiyyətlərlə yanaşı, yüksək komfortun təmin olunması deməkdir.

İstehsal prosesi və keyfiyyətə nəzarət, bu sahədə geniş təcrübəyə malik yüksəkixtisaslı yerli və xarici mütəxəssislər tərəfindən idarə olunur. Almaniyanın tanınmış "Desma" markasının son nəsil avadanlıqları ilə təchiz olunan fabrikin illik istehsal gücü 510 min cüt ayaqqabı təşkil edir.

"BAFCO İnvest"in təklif etdiyi məhsullar müxtəlif sahələrdə işçilərin maksimum təhlükəsizliyini və komfortunu təmin etmək üçün ideal seçimdir. "Made in Azerbaijan" adı altında istehsal edilən ayaqqabıların daxili bazarla yanaşı, xarici ölkələrə satışı da nəzərdə tutulub.

# Laçında daha 20 ailəyə evlərinin açarları təqdim olunub






**Dünən növbəti köç karvanı ilə Laçın şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub. AZƏRTAC xəbər verir ki, Laçın daha 20 ailəyə qucaq açıb, 68 laçınlının yurd həsrəti bitib.**

Laçına qədəm qoyan ailələr qarşılandıqdan sonra onlara ANAMA əməkdaşları tərəfindən, mina və partlamamış silah-sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları və belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olunub.

Açarların təqdim edilməsi mərasimində Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər.

Ailələr sevinc hissi ilə açarları təhvil alıb və öz evlərində məskunlaşıblar.

Bununla da Laçın şəhərində 513 ailənin, yəni 1906 nəfərin daimi məskunlaşması təmin olunub.

Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

* * *

Böyük qayıdış üzrə Laçına növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına çatıblar. AZƏRTAC xəbər verir ki, Laçın rayonu bu dəfə 20 ailəyə qucaq açıb, daha 68 laçınlının yurd həsrəti bitib.

Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurdlarına qovuşublar. Onlar böyük coşqu ilə qarşılanıblar və Laçının gözəl mənzərəsini seyr ediblər.

Doğma yurda qayıdan Laçın sakinləri hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

Bununla da Laçın şəhərində 513 ailə, yəni 1906 nəfərin daimi məskunlaşması təmin edilib.

Qeyd edək ki, köçürülən ailələrin, Laçın şəhərində dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

# *Laçına köçən sakin:* "Bu gün artıq uzun illərin məşəqqəti sona çatır"




**"Bu gün artıq uzun illərin məşəqqəti sona çatır, çünki öz evimizə, öz obamıza qayıdırıq. Bu cür sevincli günlər bütün məcburi köçkünlərə də qismət olsun". Bu sözləri AZƏRTAC-a müsahibəsində Laçına köçən keçmiş məcburi köçkün Reyhan Heydərova söyləyib.**

Laçından 35 yaşında çıxmağa məcbur olduğunu bildirən keçmiş məcburi köçkün sevincinin həddi-hüdudu olmadığını deyib.

O, dövlətimizin başçısına, Azərbaycan Silahlı Qüvvələrinə öz təşəkkürünü bildirib.

# Şuşada beynəlxalq uşaq yaradıcılıq festivalı keçiriləcək

**İyunun 1-də Şuşa şəhərində "Şuşa türk dövlətləri birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalı keçiriləcək.**




Elm və Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirliyin təşkilatçılığı ilə keçiriləcək festivalda türk dövlətlərinin məktəbliləri iştirak edəcəklər.

Konsert proqramında türk dövlətlərinə üzv ölkələrin bədii kollektivlərinin musiqi və rəqs mədəniyyəti tamaşaçılara təqdim olunacaq.

Festivalda həmçinin tanınmış mədəniyyət və incəsənət xadimləri, 150-yə yaxın məktəbli, şəhid övladları tamaşaçı qismində iştirak edəcəklər.

Layihə çərçivəsində qonaqlar mayın 26-dan iyunun 2-dək ekskursiyalarda iştirak edəcək, ölkəmizin zəngin təbiəti, tarixi-memarlıq abidələri, quruculuq işləri ilə tanış olacaqlar.

Beynəlxalq yaradıcılıq festivalının təşkilində məqsəd türkdilli dövlətlərdən olan uşaqlar arasında dostluq, qardaşlıq, əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirmək, uşaqlara öz ölkələrinin tarix və mədəniyyətini layiqincə təmsil etmək üçün şərait yaratmaq, eləcə də Şuşa şəhərinin füsunkar gözəlliyini tanıtmaqdır.

# Cəbrayıl şəhərində içməli və tullantı su infrastrukturlarının yaradılmasına başlanılıb

**Cəbrayıl şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yaradılması layihəsinin icrasına başlanılıb.**

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən (ADSEA) AZƏRTAC-a bildirilib ki, agentliyin sifarişi ilə icra olunan Cəbrayıl şəhərinin xarici su təchizatı və kanalizasiya sistemlərinin tikintisi layihəsi 2040-cı ilədək perspektiv inkişaf nəzərə alınmaqla 15 min nəfərin tələbatının ödənilməsinə hesablanıb. Cəbrayıl şəhərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə 2023-cü ildə 1 ədəd geoloji kəşfiyyat quyusu qazılıb. Seçilmiş mənbənin məhsuldarlığı və suyun keyfiyyət göstəriciləri şəhəri və ətraf kəndləri içməli su ilə təmin etməyə imkan verir. Cəbrayıl şəhərinin şimalında yerləşən quyu zonasında ümumilikdə 9 subartezian quyusunun qazılması layihələndirilib və artıq bu istiqamətdə işlərə başlanılıb. İlkin mərhələdə 3 quyu qazılacaq, şəhərdə məskunlaşacaq əhalinin sayı artdıqca yeni quyuların qazılması təmin ediləcək.

Layihə çərçivəsində Cəbrayıl şəhərində ümumi tutumu 7000 kubmetr olan 6 ədəd su anbarı inşa ediləcək. Hazırda 2000 kubmetr tutumu olan su anbarının və suyun Cəbrayıl şəhərinə çatdırılmasını təmin etmək üçün 3 kilometr uzunluğunda magistral su kəmərinin, həmçinin tullantı sularının təmizləyici qurğuya ötürülməsini təmin edən 6 kilometr uzunluğunda kanalizasiya kollektorunun inşası davam etdirilir.

Cəbrayıl şəhərində 52 kilometr içməli, 38 kilometr tullantı və 40 kilometr yağış su şəbəkələri inşa olunacaq. Şəhərdə formalaşacaq tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 6 min kubmetr olan tullantı sutəmizləyici qurğu tikiləcək. Təmizləyici qurğu və kollektor Cəbrayıl şəhəri ilə yanaşı, bəzi kəndlərin də tullantı sularının toplanaraq təmizlənməsinə imkan verəcək.

Cəbrayıl şəhərində yaradılan yeni infrastruktur "ağıllı su" sistemi əsasında idarə olunacaq. Layihə çərçivəsində hər bir infrastruktur elementi SCADA sistemilə təmin ediləcək.

Yaxın vaxtlarda "Böyük qayıdış" proqramı çərçivəsində Cəbrayıl rayonunun Horovlu və Şükürbəyli kəndlərində məskunlaşmanın başlanması nəzərə alınaraq həmin kəndlərdə su təchizatı sistemlərinin yaradılmasına hazırlıq işləri görülür.



# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Kanakların müstəqillik arzusu

### Yeni Kaledoniyada baş verən iğtişaşlar Makronun qərəzli və inadkar siyasi manevrlərinin nəticəsidir





**Emmanuel Makronun diktator vərdişləri ucbatından Fransa xüsusi inzibati-ərazi qurumu statusuna malik olan Yeni Kaledoniya adlı dəyərli dənizaşırı ərazisini itirə bilər.**

Fransa Prezidenti Yeni Kaledoniyanın yerli əhalisi olan kanakların müstəqillik elan etmək cəhdlərinin qarşısını almaq məqsədi güdən yeni seçki qanunu təqdim etmək istəyir. Lakin bu, əks effekt verib və Numea fransız xüsusi təyinatlıları, zirehli texnika və jandarmlarla dolu olmasına baxmayaraq, bu gün də davam edən xalq üsyanına səbəb olub.

Ekspertlərin fikrincə, Makron düşünürdü ki, əgər o, Fransa həmkarlar ittifaqlarının kütləvi etirazlarına qalib gələ bilibsə, o zaman əhalisinin sayı çox olmayan Yeni Kaledoniya sakinlərini də sakitləşdirə biləcək.

Lakin vəziyyət bunun əksini göstərir, əsas adada və onu əhatə edən kiçik adalarda üsyan davam edir. Üstəlik, kanaklar da odlu silahlardan istifadə edirlər. Paytaxt Numea şəhərində fövqəladə vəziyyət elan edilib, hər yerdə silahlı toqquşmalar gedir. Srağagün Makron fövqəladə vəziyyət rejimini ləğv etsə də, gərginlik səngimir...

Artıq Yeni Zelandiya və Avstraliya öz vətəndaşlarını Yeni Kaledoniyadan çıxarmağa başlayıb. Bir neçə gündür ki, xarici ölkələr bağlanan hava limanından turistləri yola salmaq məqsədilə uçuşlar həyata keçirmək üçün ipə-sapa yatmayan Fransadan icazə istəyirlər.

Ötən ayın 14-dən uçuşların dayandırıldığı Numea-La Tontuta aeroportuna kommersiya uçuşlarının bərpası yenidən təxirə salınıb. "Figaro" xəbər verir ki, bazar günü işə başlamalı olan aeroportda uçuş qadağası daha bir gün uzadılıb. Yerli aviadaşıyıcı "Aircalin" bildirib ki, polis Yeni Kaledoniyadakı gərginliyi nəzərə alaraq hava limanının bağlı qalma müddətini bazar ertəsi saat 09:00-dək uzadıb.

Qeyd edək ki, Yeni Kaledoniyanın əsas nəqliyyat vasitəsi təyyarədir.

Bu arada, Kanak və Sosialist Milli Azadlıq Cəbhəsinin (FLNKS) nümayəndəsi Cimmi Nauna Böyük Britaniyanın nüfuzlu "Guardian" qəzetində çap olunan məqaləsində qeyd edib ki, Makronun Yeni Kaledoniya ilə bağlı siyasəti işə yaramır, onlara yeni bir yol lazımdır. O bildirib ki, Yeni Kaledoniyada baş verən iğtişaşlar Emmanuel Makronun Yeni Kaledoniyanın öz müqəddəratını təyinetmə prosesini pozmaq üçün apardığı qərəzli və inadkar siyasi manevrlərin birbaşa nəticəsidir. Parisdə Fransa Milli Assambleyasında qəbul edilən seçki islahatı ilə bağlı qanun layihəsi iki həftə əvvəl paytaxt Numeada iğtişaşlara səbəb olub: "Bu ilin aprel ayında seçki islahatı ilə bağlı qanun layihəsi Fransa Senatına təqdim edildikdən bəri Numea şəhərinin mərkəzində və ümumilikdə Yeni Kaledoniyada on min nəfərdən çox insanın iştirak etdiyi dinc mitinqlər, nümayişlər, yürüşlər və oturaq aksiyalar keçirilib. Lakin Fransa hökuməti bu qanunun yerli səviyyədə iğtişaşlar və zorakı reaksiyalara səbəb olacağına dair aydın işarələrə baxmayaraq qanun təşəbbüsünü yenə də irəli sürüb".

Məqalədə qeyd edilib ki, Makronun Yeni Kaledoniyadakı vəziyyəti idarə etməsi Fransada siyasi qruplar tərəfindən mübahisəli olaraq qiymətləndirilir. Nauna Makronun ötən həftə Yeni Kaledoniyaya səfərinin də siyasi mənfəət məqsədi daşıyan təbliğat addımı olduğunu deyib: "Hətta öz partiyası daxilində belə Makron seçki islahatı barədə qanun layihəsini Versal Konqresi (parlamentin birgə iclası) vasitəsilə keçirmək üçün dəstəyini itirib".

Bildirilib ki, Makron Parisə qayıtdıqdan sonra seçki islahatını Fransa Konstitusiyası çərçivəsində milli referenduma çıxarmağı düşünüb. Səfərdən sonra FLNKS bəyanat yayaraq seçki islahatı prosesinin dayandırılması və ya geri götürülməsi tələbini təkrar səsləndirib. Həmçinin gərginliyi azaltmaq və daha əlverişli mühit yaratmaq üçün Yeni Kaledoniyaya yüksəksəviyyəli müstəqil missiyanın göndərilməsi də tələb edilib.

Fransa ən böyük neokolonial güc olaraq qalır - o, Yeni Kaledoniya kimi, Reyunyon adaları, Uollis və Futuna adaları, Martinik və Qvadelupa, Klipperton və Karib dənizinin elit kurortları olan Sen-Bartelemi və Sen-Martinə sahibdir. Paris Cənubi Amerikada Fransız Qvianasına, Atlantikada Sen-Pyer və Mikelon adalarına nəzarət edir. Lakin bu da tam siyahı deyil...

Fransada narahatdırlar ki, Yeni Kaledoniyadan sonra Qvadelupa və digər problemli ərazilərdə də etirazlar başlayacaq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Kolonializm tarixinin qanlı cinayətlərinin çoxu Fransa tərəfindən törədilib

**Üzdə özünü demokratik ölkə kimi göstərən, amma tarixi keçmişi bir sıra xalqlara qarşı cinayətlərlə, soyqırımları ilə, qırğınlarla dolu olan Fransa hökuməti bu gün də qanlı əməllərindən əl çəkmir. İşğalçılıq niyyətindən geri durmur.**

Paris uzun illərdən bəridir Yeni Kaledoniyanı müstəmləkəsi kimi əsarətində saxlamaq, habelə adanın yerli sakinləri olan kanakları assimilyasiya etmək üçün başqa yerlərdən minlərlə miqrantı qanunsuz yolla, məqsədli şəkildə adaya yerləşdirir. Bu çirkin addımı atmaqda Fransanın əsas məqsədi müstəqilliyi uğrunda mübarizəyə qalxmış kanakları azlığa çevirmək və miqrantların hesabına işğalın ömrünü uzatmaqdır. Makron hökuməti öz çirkin məqsədinə çatmaq üçün Yeni Kaledoniya Konqresinin və xalqının iradəsinə zidd olaraq bu ölkənin seçki qanunvericiliyini dəyişməyə çalışır. Buna qarşı çıxanlara isə zor tətbiq edir, qırğınlar törədir, insanları qan içində boğur.

İllərdən bəridir ki, Yeni Kaledoniya xalqı Fransanın onu sıxıb əzən müstəmləkə zəncirindən azad olmaq uğrunda mübarizə aparır. Paris isə bu haqlı istəyi bütün vasitələrlə boğur, işğalçılıq əməllərindən geri çəkilmir. Bu günlər Fransız Polineziyasında baş verənlər onu deməyə əsas verir ki, özünü dünyaya demokratiya, insan haqları, mədəniyyət beşiyi kimi göstərməyə çalışan Fransa, əslində, insanlığa zidd, qan-qada ilə dolu olan siyasət yürüdür. Bu cür qan qoxulu siyasətlə Paris illərdir Afrikada, Cənub-Şərqi Asiyada, Latın Amerikasında sərvətləri talan edir, yüz minlərlə insanın haqqını tapdalayır, açıq və gizli şəkildə soyqırımları törədir.

Azərbaycan Fransa hakimiyyətinin insanlıq əleyhinə olan bütün qanlı addımlarını həmişə qınayıb. Qəribədir ki, Paris qanlı əməllərindən utanıb ibrət götürmək, insanların azadlıq haqqını tanımaq, səhvlərinə düzəliş etmək əvəzinə həm Yeni Kaledoniyada yerli əhaliyə qarşı cinayətlərini davam etdirir, həm də bu işdə günahı Azərbaycanda axtarmağa çalışır. Bir müddət əvvəl bu ölkənin daxili işlər naziri J.Darmanen gülüş doğuran bir açıqlama verib. O, Azərbaycanı Yeni Kaledoniyada iğtişaşlara "müdaxilədə" və ölkəsinin daxili işlərinə qarışmaqda ittiham edib. Azərbaycanın Xarici İşlər Nazirliyi isə ona cavabında bu cür əsassız və ittiham xarakterli iddiaları qətiyyətlə rədd edib. Vurğulanıb ki, Fransanın daxili işlər naziri Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarı olanların etirazlarını dəstəkləməkdə ittiham etməkdənsə, ölkəsinin bu cür etirazlara səbəb olan dənizaşırı bölgələri ilə bağlı uğursuz siyasətinə diqqət yönəltməlidir.

Fransanın müstəmləkəçilik siyasətinin tarixi dünənin, bu günün işi deyil. Bu çirkin, qan qoxuyan siyasətin təxminən 500 il yaşı var. Paris tarixin səhifələrinə qanla yazılmış istilalar və qırğınlar sayəsində Afrikanın qərbində və şimalında 20-dən çox ölkəni təsiri altına salıb. Fransa Afrikanın ərazilərinin təxminən 35 faizinə 300 il nəzarət edib. Demokratiyadan, insan azadlığından dəm vura-vura bu yerlərin təbii sərvətlərini talayıb, yerli sakinlərinə zülm edib. Mənbələrin yazdıqlarına görə, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu Fransa tərəfindən törədilib.

Yeni Kaledoniyada yaşayan kanak xalqı da uzun illərdir Fransanın müstəmləkəçilik siyasəti altında əzilməkdə davam edir. Təxminən 250 min əhaliyə və 20 min kvadratkilometr əraziyə malik olan Yeni Kaledoniya adası Sakit okeanda Avstraliya ilə Yeni Zelandiyanın arasında yerləşir. Ada 1774-cü ildə məşhur ingilis səyyahı Ceyms Kuk tərəfindən kəşf olunub və Kaledoniya adlandırılıb. Fransız missionerləri adaya XIX əsrin ortalarından ayaq açıblar. Elə həmin tarixdən də burada yaşayan sakinlərin qara günlərinin bünövrəsi qoyulub. Qazandığı sərvətlərdən vəcdə gələn Fransa 1853-cü ildə adaya tamamilə sahiblənərək açıq şəkildə buranı özünün müstəmləkəsi elan edib. XIX əsrin sonuna qədər Fransa adanın yerli sakinlərini istismar etməklə yanaşı, qatı cinayət törətmiş məhkumlarını da buraya sürgün edib. XX əsrin əvvəllərindən isə Fransa adada tapılmış faydalı qazıntı yataqlarını da istismar etməyə başlayıb. Bu ərazi qızıl, bürünc, xrom, nikel, dəmir və s. filiz ehtiyatları ilə zəngindir. Ada sakinləri ötən əsrin 80-ci illərindən başlayaraq Fransanın ağır müstəmləkəçilik siyasətinə qarşı etiraza qalxıblar. Onların başlıca və yeganə məqsədləri Fransanın sərhəd tanımayan zülmündən birdəfəlik qurtulmaq olub. Təəssüflər olsun ki, uzun illərdən bəri aparılan gərgin mübarizəyə baxmayaraq, kanak xalqı hələ də müstəqilliyinə qovuşa bilməyib. Buna xalqları əzən, müstəqilliyini əlindən alan Paris rejimi imkan vermir. Hər vəchlə adanı əlində saxlamağa çalışır, müstəmləkəçiliyin ömrünü uzadır.

Azərbaycan 30 ilə yaxın müddətdə işğalla, separatizmlə, eyni zamanda dünya birliyinin ədalətsiz mövqeyi ilə üzləşmiş bir dövlət olaraq xalqların əzilməsinə, insanların haqlarının tapdanmasına, azadlıq mücadilələrinin boğulmasına qarşı etiraz səsini qaldırıb. Bakı Təşəbbüs Qrupunun Fransa hakimiyyəti tərəfindən Yeni Kaledoniyada kanakların həbs olunması və mülki şəxslərə qarşı zorakılığa dair yaydığı bəyanatda Fransa hakimiyyəti tərəfindən həyata keçirilən son həbslər və komendant saatının tətbiqindən, təhlükəsizlik qüvvələrinin kanak xalqına qarşı törətdiyi zorakılıqlardan dərin narahatlıq ifadə olunub. Bəyanatda həmçinin Fransa Senatı və Milli Assambleyası Yeni Kaledoniyada qanunsuz konstitusiya dəyişikliklərini dayandırmağa çağırılıb. Adada yaşayan kanak xalqı ilə həmrəylik ifadə olunub.

Parisin Yeni Kaledoniyada konstitusiya "islahatları" ilə bağlı aborigen icmalar tərəfindən keçirilən etiraz aksiyalarının qarşısını dünyada qəbul olunmayan qəddar üsullarla alması haqlı olaraq təəssüf və qəzəb doğurur. Müstəmləkəçilik siyasəti yürüdən Fransanın törətdiyi bu qanlı hadisələr demokratiya, insan hüquq və azadlıqlarının üstünə atılmış silinməsi mümkün olmayan qara ləkədir. Bu ləkənin bütün məsuliyyəti, bütün günahı Parisin tarixindən heç vaxt silinməyəcək. Təbiidir ki, Fransanın müstəmləkəsi olan Yeni Kaledoniyada, eləcə də başqa ərazilərdə baş verən qanlı hadisələr, qırğınlar Makron hakimiyyətinin uğursuz siyasətinin nəticəsidir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***



## Müstəmləkəçiliyə qarşı mübarizə xalqların haqq işidir

**50-dən artıq ölkənin ərazisini işğal edən Fransa onların xalqlarına yalnız bədbəxtliklər gətirib. Bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Afrika, Cənub-Şərqi Asiya, Sakit okean, Latın Amerikası ölkələrində Fransa hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlərin müəllifi olub.**

Fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyub. İşğal etdiyi ərazilərin yalnız maddi sərvətlərini talan etməklə, kütləvi qırğınlar törətməklə kifayətlənməyən Paris əsarətdə saxladığı xalqlara öz dillərindən istifadəyə belə qadağalar qoyub. Tarixlərini, mədəniyyətlərini unutdurmağa çalışıb. Həmin ərazilərdə ağalığını əbədiləşdirmək üçün dövlət işlərinə özlərinə sadiq, ağdərililəri təyin edib.

İşğal edib sahib olduqları əraziləri fransızlar əsl fəlakət zonasına, nüvə poliqonuna çeviriblər. Əlcəzairin Reggan və İn Ecker adlanan ərazilərində 11-i yeraltı olmaqla 17 nüvə sınağı keçiriblər. Həmin sınaqların və tullantıların yerli əhaliyə göstərdiyi təsirlərin qiymətləndirilməsindən və müvafiq kompensasiyanın ödənilməsindən boyun qaçıran rəsmi Paris bu günə qədər aşkar edilməmiş kimyəvi, radioaktiv və zəhərlənmiş tullantıların yerləşdiyi ərazilərə dair topoqrafik xəritələri Əlcəzair tərəfinə təqdim etmir. Bu azmış kimi, işğal etdiyi Əlcəzair ərazisinə 5 milyondan artıq mina basdıran Fransa həmin minaların xəritələrini Əlcəzair tərəfinə verməkdən imtina edir. Xatırladaq ki, Əlcəzair mina partlayışından ən çox əziyyət çəkən ölkələrin sırasında birinci yeri tutur.

Fransa ordusu Əlcəzairin 132 il davam edən işğalı dövründə 1,5 milyondan artıq insanı amansızlıqla qətlə yetirib. Fransız ordusunun Mərakeş, Tunis, Mali, Cibuti, Nigeriya, Çad, Seneqal, Vyetnam, Qəmər adaları, Haiti və digər ölkələrdə işğalın ağır fəsadları bu gün də hiss olunmaqdadır.

Fransa özündən təqribən 17 min kilometr uzaqda - Sakit okeanın cənubundakı 5 arxipelaqdan ibarət Fransız Polineziyasında 1966-1996-cı illərdə 200-ə yaxın nüvə sınağı həyata keçirib. Bölgədə ətraf mühit üçün ağır fəsadlarla nəticələnən nüvə sınaqları 170 min nəfər əhalinin həyatına son qoyub. Ən dəhşətlisi də budur ki, beynəlxalq təşkilatların da etdiyi çağırışlara uyğun olaraq, nüvə sınaqlarının vurduğu ziyan qiymətləndirilmir və Fransa tərəfindən müvafiq təzminatlar ödənilmir. Paris heç utanmadan bədbəxtlik bəxş etdiyi insanlara kompensasiya verməkdən yayınır.




1990-1994-cü illərdə Ruandada Tutsi qəbiləsinin soyqırımında Fransanın məsuliyyət faktını inkar etmək mümkün deyil. 26 mart 2021-ci ildə tarixçilərdən ibarət komissiyanın hazırladığı hesabat Fransa Prezidentinə təqdim edilib. "Fransa, Ruanda və Tutsinin soyqırımı (1990-1994)" adlı sənəddə 1994-cü ildə Ruandada Tutsi qəbiləsinin 800 mindən çox üzvünün qətlə yetirilməsində bu ölkənin böyük məsuliyyət daşıdığı qeyd edilir.

Fransa özünü dünyada insan hüquqları və azadlıqları uğrunda mübarizə aparan bir dövlət kimi təqdim etməyə çalışsa da, bu dövlətin saxtakarlığı, mələk qiyafəli şeytan olduğu hər kəsə məlumdur. Elə bu səbəbdən də Parisin kolonializm siyasətindən əl çəkməkdən başqa çıxış yolu yoxdur. Əgər Fransa bunu könüllü şəkildə etməsə, öz azadlıqları uğrunda mübarizəyə qalxan xalqlar rəsmi Parisi buna məcbur edəcəklər. Bir neçə il əvvəl Malidə və Burkino-Fasoda, eləcə də Nigerdə və Qabonda baş verən hərbi çevrilişlər nəticəsində hakimiyyətə gələn qüvvələr Fransa ilə əlaqələri minimuma endiriblər. İş o yerə çatıb ki, hətta bu ölkələrdə Fransa televiziya kanallarının yayımı da qadağan edilib. Hadisələrin təhlili göstərir ki, Fransa on illərdir soyub taladığı, milyonlarla insanını sorğusuz-sualsız qətlə yetirdiyi keçmiş müstəmləkələri ilə vidalaşmaq üzrədir. Afrika qitəsi Fransadan, onu xatırladan hər şeydən sürətlə uzaqlaşmaq xəttini götürüb. İllərdir zülmə, zorakılığa məruz qalan xalqların müstəmləkəçilik əleyhinə apardıqları mübarizə Fransanı dalana dirəyib. Əsarətdə saxladığı xalqların haqqını Fransa özü könüllü geri qaytarmasa, azadlıqları uğrunda mübarizəyə qalxan xalqların bunu Fransadan zorla alacaqları şübhə doğurmur. Sakit okeanda yerləşən Yeni Kaledoniya və Fransız Polineziyasında baş verən son hadisələr də deməyə əsas verir ki, müstəmləkə imperiyası son illərini yaşayır. Bunu bütün dünya görür. Qalır Fransanın başa düşməsi.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# REGİONLAR

## "Dünyamızı qoruyaq"

**Masallı Rayon İcra Hakimiyyəti, Tarix-Diyarşünaslıq Muzeyi və Uşaq Səfirlər Məclisinin rayon nümayəndəliyinin birgə təşkilatçılığı şəhər Dəfinə liseyinin şagirdlərinin iştirakı ilə "Yalnız bir dünya" layihəsi çərçivəsində "Dünyamızı qoruyaq" mövzusunda "dəyirmi masa" təşkil edilmişdir.**

Tədbiri giriş sözü ilə açan muzeyin direktoru Əntiqə Tağıyeva qloballaşan dünyanın qloballaşan problemləri artdıqca "yaşıl dünya" naminə həmrəyliyin, birliyin aktual məsələyə çevrilməsini bildirmiş, bu sahədə dövlət tərəfindən müəyyən olunmuş prioritetlərdən, COP29 kimi mötəbər tədbirin ölkəmizdə keçirilməsindən söhbət açmışdır.

Tədbirdə çıxış edən Masallı Rayon İcra Hakimiyyəti Başçısı aparatının Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi - psixoloqu Aybəniz Novruzova, Uşaq Səfirlər Məclisinin regional nümayəndəsi Nuray Musayeva, muzeyin əməkdaşı Dilgüşə Məmmədova bildirmişlər ki, iqlim dəyişiklikləri, su, torpaq və atmosfer havasının çirklənməsi, qlobal istiləşmə, ozon qatının zədələnməsi, su ehtiyatlarının tükənməsi, təbii fəlakətlər ümumbəşəri probleme çevrilib. Bu problemlərin aradan qaldırılması üçün hər bir vətəndaşda "yaşıl təfəkkür" formalaşmalıdır.

Diskussiya formatında keçirilən tədbirdə Uşaq Səfirlər Məclisi regional nümayəndəliyinin təşkil etdiyi tədbirlərində fəallıq nümayiş etdirmiş şagirdlərə diplomlar təqdim olunmuşdur.

***S.CAVADOV, "Azərbaycan"***

## İcra orqanları və sahibkarlar bir araya gəldilər

**Ağstafa Rayon İcra Hakimiyyətində rayonda fəaliyyət göstərən sahibkarlarla görüş keçirilmişdir. Görüşdə rayonun ticarət, iaşə və xidmət sahələrindəki mövcud vəziyyət, həmçinin istehlakçı məmnuniyyətinin təmin edilməsi ətrafında müzakirələr aparılmışdır.**

Rayon icra hakimiyyətinin başçısı Seymur Orucov çıxış edərək ölkəmizdə sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyindən, eləcə də Prezident İlham Əliyevin ölkə iqtisadiyyatında sahibkarların rolunun artırılmasına verdiyi xüsusi diqqətdən danışmışdır. Qeyd etmişdir ki, sahibkarlığın inkişafı, iqtisadiyyatın dinamik inkişafı, əhalinin sosial müdafiəsinin təminatı, o cümlədən yeni iş yerlərinin açılması deməkdir.



Sonra Ağstafadakı "KOB Dostu"ndan Cavid Adıgözəlov, Sahibakarlar Konfederasiyası Ağstafa Şurasının sədri Vüqar Kərimov, iş adamı Elşad Vəliyev ölkəmizdə sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması, investisiya və biznes mühitinin yaxşılaşdırılması istiqamətində icra olunan tədbirlərdən, sahibkarların fəaliyyətinin dövlət tərəfindən müdafiə olunması, milli sahibkarlığın inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, əhalinin məşğulluğunun artırılması, yerli istehsalçıların mənafeyinin xarici təsirlərdən qorunması və digər mühüm məsələlərdən söz açmışlar.

Sonra yerli sahibkarları maraqlandıran məsələlərlə bağlı fikir mübadiləsi aparılmış, onların təklifləri dinlənilmiş və sualları cavablandırılmışdır.

***S.ƏLİYEV, "Azərbaycan"***

## Neftçalada da "yaşıl enerji" istehsal olunacaq

**Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində tədbir keçirilib.**



Öncə rayon icra hakimiyyəti və inzibati ərazi dairələrinin nümayəndələri, bələdiyyə sədrləri, 3 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin işçiləri, şəhid valideynləri, ziyalılar, ağsaqqallar Neftçala şəhərindəki "Şəhidlər Abidə Kompleksi"ni ziyarət etmiş, kompleksin ətrafına şam və sərv ağacları əkmişlər.

Sonra ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi, bərk məişət tullantılarının idarə olunması mövzularında maarifləndirici məruzələr dinlənilmiş, yığıncaq iştirakçılarının sualları cavablandırılmış, səsləndirilən fikirlərə aydınlıq gətirilmişdir. Seminar iştirakçılarına həmçinin Azərbaycan hökuməti və BƏƏ-nin "Masdar" şirkəti arasında ümumi gücü 1000 MVt olan "yaşıl enerji" layihələri üzrə üç investisiya müqaviləsinin imzalanmasından, Azərbaycanın "yaşıl enerji" istehsal və ixrac edən ölkə kimi strateji hədəflərindən danışılmışdır. Sonda Nazirlər Kabinetinin 2024-cü il 16 aprel tarixli qərarı ilə Neftçala rayonunun inzibati ərazisində dövlət və bələdiyyə mülkiyyətinə aid bəzi torpaq sahələrinin bərpaolunan enerji mənbələrinin ərazisi kimi müəyyən edilməsi və 315 MVt gücündə günəş-elektrik stansiyalarının tikintisi çərçivəsində görülən işlər barədə iştirakçılara ətraflı məlumat verilmişdir.

## Ağsaqqal öyüdünə həmişə ehtiyac var

**Nefçala Rayon Ağsaqqallar Şurasının illik hesabat yığıncağı keçirilib. Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mirhəsən Seyidov, respublika Ağsaqqalar Şurasının sədr müavini, akademik Abel Məhərrəmov, ağsaqqallar, şəhid ailələri və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Çıxış edənlər ölkəmizdə, xüsusilə işğaldan azad olunan torpaqlarımızda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən böyük quruculuq işlərindən bəhs edərək rayon ağsaqqallarının əhali ilə, o cümlədən gənclərlə maarifləndirici söhbətlər apardıqlarını, onların zərərli vərdişlərə aludəçiliyinin və digər neqativ halların qarşısının alınmasında yaxından iştirak etdiklərini vurğulayıblar. Akademik Abel Məhərrəmov çıxışında gənclərlə aparılan işlərin daha da artırılmasından danışaraq vurğulayıb ki, ağsaqqallar ölkəmizin ictimai-siyasi həyatında daha da yaxından iştirak etməli, gənc nəslin milli-mənəvi dəyərlərimizə və doğma Vətənimizə sədaqət ruhunda tərbiyələnməsi üçün əllərindən gələn köməyi göstərməlidirlər. Natiq həmçinin ölkəmizdə Prezident İlham Əliyev tərəfindən aparılan genişmiqyaslı quruculuq-abadlıq işlərindən, vətəndaşların rifah halının yaxşılaşdırılması istiqamətində atılan məqsədyönlü addımlardan danışıb.

Neftçala RİH-in başçısı Mirhəsən Seyidov isə çıxışında bildirib ki, rayonda daim ağsaqqallarla görüşlər keçirilir, onların istək və təklifləri dinlənilir: "Rayonun inkişafında, mədəni-ictimai həyatında, gənc nəslin formalaşmasında ağsaqqallar hər zaman xüsusi rol oynayırlar. Ulu Öndər Heydər Əliyev ağsaqqallara həmişə böyük qayğı və diqqət göstərib, onları "milli-mənəvi dəyərlərimizin qızıl fondu" adlandırıb. Bu qayğı və diqqət hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə müstəqil Azərbaycanın inkişafı və tərəqqisi naminə aparılan işlərdə ağsaqqalların rolu əvəzsizdir. 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 30 ilə yaxın erməni işğalı altında olan torpaqlarımızı azad etdi və bu şanlı qələbədə Neftçalanın vətənpərvər gənclərinin də böyük payı oldu".

***Seyran CAVADOV, "Azərbaycan"***

## "Güclü cəmiyyətin zərif simaları" uğur qazanır

**Masallı Rayon Heydər Əliyev Mərkəzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə icra edilən "Güclü cəmiyyətin zərif simaları" layihəsi çərçivəsində görüş keçirilib.**

Tədbirin açılışında adıçəkilən komitənin və ictimai birliyin, eləcə də yerli icra orqanının nümayəndələri çıxış ediblər. Çıxışlarda dövlət tərəfindən həyata keçirilən qadın siyasətindən, qadınların öz potensiallarını reallaşdırmaları üçün yaradılan imkanlardan danışılıb, bu istiqamətdə aidiyyəti qurumlar və ictimai birliklər tərəfindən həyata keçirilən layihələrin əhəmiyyətinə diqqət çəkilib.

Sonra fərqli sahələrdə uğur qazanan qadınlardan - Kiçik və Orta Biznes Subyektləri və Klubları Assosiasiyasının rəhbəri Nigar Ələsgərova, Yüksəliş Müsabiqəsinin qalibi Ülkər Məlikova TEDx formatında çıxış edərək öz uğur hekayələri və təcrübələrini görüş iştirakçıları ilə bölüşüblər.

Qeyd edək ki, layihənin məqsədi regionlarda yaşayan qadınlar, yeniyetmə və gənc qızların şəxsi və liderlik bacarıqlarının inkişafına dəstək vermək, onların ictimai fəallığını təşviq etməkdir.

***"Azərbaycan"***

## "Təmiz ölkəm" hər kəsin öz ətrafından başlayır

**"Yaşıl dünya naminə həmrəylik ili'" çərçivəsində Lənkəran Şəhər İcra Hakimiyyətinin (ŞİH) və 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin təşkilatçılığı ilə "Təmiz ölkəm" adlı ekoloji aksiya keçirilib.**

Aksiyada Lənkəran Şəhər Mənzil İstismar və Kommunal Müəssisələr İdarəsi, Lənkəran Şəhər Yaşıllaşdırma Müəssisəsi, Lənkəran Şəhər Mənzil Təsərrüfatı İdarəsi, Hirkan Milli Parkı, Qızılağac Mili Parkı, Cənub Regional Hidrometeorologiya Mərkəzi, 1 və 11 saylı Regional Meşə Təsərrüfatı mərkəzlərinin əməkdaşları iştirak ediblər.

Xəzər dənizinin Lənkəran rayonunun Sütəmurdov kəndi ərazisindən keçən sahil zolağında keçirilən təmizlik aksiyası zamanı ərazidən müxtəlif tullantılar toplanaraq poliqona daşınıb.

***"Azərbaycan"***

## "Bağda ərik var idi..."

### Amma leysan yağışları və güclü külək onu yox etdi

**Ağstafa rayonunda 1300 hektar meyvə bağı var. Onun da 79 hektarı ərik bağlarıdır. Keçən il fermerlər bu bağlardan 998 ton meyvə toplamışdılar.**



Gəlirlərinin bir hissəsini bu bağlardan götürən rayon sakinləri indi problemlə üzləşiblər. Qərb bölgəsinə yağan intensiv yağışlar, əsən güclü küləklər bağlarda yetişən meyvələrin demək olar ki, axırına çıxmışdır. Xüsusən ağacların çiçəkləmə dövründə havaların yağmurlu keçməsi ən çox ərik bağlarına ziyan vurmuşdur.

Fermer Bayram Bayramov deyir ki, keçən il hər ağacdan 40-50 kiloqram meyvə toplamışdı. Bu il isə hər ağacda cəmi 4-5 dənə ərik ola, ya olmaya. Rayonun digər bağbanları da eyni vəziyyətdədir. Amma bu, dərdin yarısıdır. Əsən güclü küləklər və leysan yağışları əriklə yanaşı, digər meyvə ağaclarına da ziyan vurub.

Fermer Süleyman Ağayevlə söhbət zamanı dedi ki, dolanışığımız, əsasən, meyvə bağlarından çıxdığı üçün əlimizə düşəni həmin bağlara qoyuruq: "Yazda həmin ağaclara yüksək aqrotexniki qulluq göstəririk. Ziyanvericilərə qarşı dərmanlama aparır, suvarmanı və belləməni vaxtında edirik. Hamısı da puldur. Güman edirdik ki, keçənilki kimi, bu il də bağlarda bol məhsul yetişəcək. Lakin havalar ümidimizi alt-üst etdi".

Bağbanların dilxorçuluğunu başa düşmək olar. Onlar məhsullarının bir hissəsini daxili bazarlarda satır, bir hissəsini isə Rusiyaya göndərirlər. Pis də qazanmırlar. Çünki məhsul bol olurdu. Keçən il əriyi yerində kiloqramını 70-80 qəpiyə satıblar. İndi əriyin yetişən vaxtıdır, ancaq bağlara baxanda adamın ürəyi ağrayır. Elə ağac var ki, üstündə bir dənə də olsun meyvə yoxdur.

Lakin mütəxəssislər bağ sahiblərinə bağlarda aqrotexniki tədbirləri dayandırmamağı məsləhət görürlər. Bir də tövsiyə edirlər ki, aqrar sığortadan istifadə etsinlər. Ölkədə bu sığorta haqqının yarısını dövlət ödəyir. Bundan sərfəli şərt olarmı? Xüsusən də zəhmətinin, xərcinin əvəzi hava şəraitindən asılıdırsa...

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## 70 yaşlı Uşaq Musiqi Məktəbi

**Göygöldə Aşıq Şəmşir adına Uşaq Musiqi Məktəbinin 70 illik yubileyi qeyd edilmişdir.**

Rayon icra hakimiyyətinin başçısı Elvin Paşayevin, Aşıq Şəmşirin nəvəsi, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Cavid Qurbanovun, Kəlbəcər Rayon İcra Hakimiyyətinin başçısı Azər Qocayevin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Məktəbin direktoru Nuranə Quliyeva uşaq musiqi ocağının uğurları və nailiyyətləri barədə ətraflı məlumat verdikdən sonra Elvin Paşayev və Cavid Qurbanov çıxış edərək məktəbin mədəniyyətə və incəsənətə verdiyi töhfələrdən danışmışlar.

Sonra məktəbin müəllimləri, şagirdləri və məzunları maraqlı konsert proqramı ilə çıxış etmişlər. Sonda məktəbin bir qrup müəlliminə fəxri fərmanlar təqdim olunmuş, kollektivlə birgə xatirə şəkli çəkdirilmişdir.

***"Azərbaycan"***

## 30-40 günə yaxşı qazanc

### Bu il də Goranboyda bol barama gözlənilir

**Son illər kənd təsərrüfatında gəlirli sahələrdən biri olan baramaçılığa maraq xeyli artmışdır. Dövlətin bu sahənin inkişafına verdiyi dəstəkdən yararlanan kümçülər hər il bir çox uğurlara imza atırlar.**



Ölkəmizdə barama tədarükünə görə öndə gedən rayonlardan biri də Goranboydur. Artıq 7 ildir ki, rayonda baramaçılıqla məşğul olurlar. Keçən il 6 tondan çox yaş barama tədarük edən rayon kümçüləri bu il də nəzərdə tutulduğundan çox məhsul təhvil vermək üçün əllərindən gələni əsirgəmirlər.

Cari il rayonda 51 kümçüyə 110 qutu ipəkqurdu paylanmışdır. Hazırda barama 4-cü inkişaf mərhələsindədir. Baramaqurdlarının yemlənməsində heç bir problem yoxdur. Qızılhacılı, Səmədabad, Faxralı, Xan Qərvənd və digər kəndlərin ərazisindəki 27 mindən çox tut ağacı kümçülərin ehtiyacını ödəyir. Yeniyol kəndində barama saxlayanların sayı ildən-ilə artır. 2016-cı ildən baramaçılıqla məşğul olan kənd sakinləri bu il 10 qutu baramaqurdu götürmüşlər. Kənd sakinləri qurdları yemlə təmin etmək üçün çox da uzağa getmirlər. Tut yarpağını elə kəndin ərazisində salınmış tut bağından toplayırlar. Qeyd edək ki, rayonda baramaçılıqla, əsasən, Xan Qərvənd, Yeniyol, Əlirzalı, Veyisli, Şahməmmədli, Borsunlu və Faxralı kəndlərinin sakinləri məşğul olurlar. Kümçülərdən Kənan Aslanov, Təranə Quliyeva və başqaları artıq bu sahədə zəngin təcrübə toplamışlar.

Onu da bildirək ki, rayon icra hakimiyyətinin nümayəndələri və Goranboy Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri tez-tez kümçülərə baş çəkir, onlara hər cür kömək göstərirlər.

***S.YUNİSOĞLU, "Azərbaycan"***

## Naftalanın ilk mobil tətbiqi istifadəyə verilib

Naftalan Şəhər İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə nəfis tərtibatda hazırlanmış "Visit Naftalan" mobil tətbiqinin təqdimatı keçirilib.

Təqdimat mərasimində şəhər icra hakimiyyətinin məsul əməkdaşları, Gəncə Regional Turizm Mərkəzinin və şəhərdə fəaliyyət göstərən hotel və müalicə mərkəzlərinin rəhbərləri, turistlər, idarə və müəssisələrin nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan şəhər icra hakimiyyəti başçısının müavini Kəmalə Hüseynova sağlamlıq və turizm imkanlarını özündə birləşdirən unikal neftə sahib, beynəlxalq turizm mərkəzi Naftalanın turizm potensialı barədə məlumat verərək mövcud imkanların inkişaf etdirilməsinin vacibliyini vurğulamışdır. Həmçinin qeyd etmişdir ki, üç dildə fəaliyyət göstərən "Visit Naftalan" tətbiqinin yaradılması bu sahədə atılan addımlardan biridir. Tətbiqin istifadəsi turist məmnunluğu ilə yanaşı, əlçatanlığı təmin edəcəkdir.

Sonra Naftalanın potensialını özündə nümayiş etdirən, tətbiqdən istifadə qaydalarını əks etdirən videoçarx nümayiş etdirilmiş, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır. Qeyd olunmuşdur ki, internet istifadəçiləri "Visit Naftalan" mobil tətbiqini "Android" və "İOS" əməliyyat sistemi ilə çalışan mobil telefonlardan yükləyə bilərlər.

Tədbirin sonunda iştirakçı xarici turistlərə şəhər icra hakimiyyətinin xatirə hədiyyələri təqdim olunmuşdur.

***"Azərbaycan"***







● Qarabağ Azərbaycandır!

# İftixarla xatırlanacaq tarixi anlar

**44 günlük Vətən müharibəsində uğurla başa çatan, Azərbaycan xalqına böyük sevinc bəxş edən əməliyyatlardan biri də - Şuşanın işğaldan azad edilməsi idi. Bu əməliyyat əhəmiyyətinə və taktiki gedişinə görə hərb tariximizin səhifələrində əbədi qalacaq, dərsliklərə salınacaq, öyrəniləcək. Qarabağın tacı və döyünən ürəyi olan Şuşa yerləşdiyi əraziyə görə təbii istehkamlarla zəngindir.**



Necə deyərlər, hər qayası, hər daşı bir səngərdir. Deməli, şəhərin erməni işğalçılarından azad olunması hərbçilərimizdən taktiki gedişləri tamamilə fərqli olan xüsusi əməliyyat həyata keçirməyi tələb edirdi. Çünki Şuşaya zirehli texnikalarla, ağır silahlarla hücum etmək böyük itkilərə gətirib çıxarardı.

Şəhərdəki düşmən qüvvələrinin mövqelərinə havadan zərbələr endirmək çətin bir iş deyildi. Amma bu, yolverilməz idi. Çünki Şuşanın toplardan, havadan bombardman edilməsi ciddi dağıntılara səbəb olardı. Şuşadakı tarixi abidələr bir göz qırpımında yer üzündən silinərdi. Odur ki, Şuşa düşməndən tarixi abidələrimiz dağıdılmadan, infrastruktur zədələnmədən azad edilməli idi. Buna görə də bu gözəl məkanın azad edilməsi üçün komandanlıq tərəfindən alternativ variant kimi əlbəyaxa döyüş taktikası seçildi. Ürəyi Vətən sevgisi ilə döyünən, illərdən bəri Şuşanı erməni işğalçılarından azad etmək arzusuyla yaşayan qəhrəman zabit və əsgərlərimiz yüngül silahlarla silahlanaraq qalın meşələrdən, dərin dərələrdən, sıldırım qayalardan keçdilər. İşğalçıların gözləmədiyi bir gündə səssiz-səmirsiz şəhərə girib onların başlarının üstünü alıb döyüşə girdilər. Düşmən çaşıb qaldı, elə həmin an da sonunun gəldiyini hiss etdi.

Qəhrəmanlarımızın döyüş yoluna nəzər saldıqda heyrətlənməyə bilmirsən. Azərbaycan Ordusunun bölmələri hələ oktyabrın ortalarında uğurlu əməliyyat nəticəsində Hadrut qəsəbəsini və onun ətrafındakı kəndləri işğalçılardan azad etmişdilər. Bundan sonra hərbçilərimiz irəliləyərək meşələri və dağ keçidlərini aşıb Şuşaya daxil olmuşdular. Müzəffər Ali Baş Komandan İlham Əliyev çıxışlarında da Azərbaycan əsgərlərinin şəhərə çatmaq üçün yarğanları, meşələri və dağları keçdiklərini qeyd etmişdir.

Artıq məğlubiyyətin acısını dadmış düşmən Azərbaycan Ordusuna Qırmızı Bazar ətrafında müqavimət göstərməyi hesablamışdı. Çünki keçən yol hərbçilərimizi Şuşaya aparacaqdı. Ermənistan ordusunun Azərbaycan qoşunlarının Şuşaya həmləsini gözlədiyi ikinci istiqamət isə Laçından idi. Lakin komandanlıq miqyasına, planına və ardıcıllığına görə misli görünməmiş hücum qərarını artıq vermişdi. Şuşanı düşməndən azad edəcək meşələrdən, dağlardan, dərələrdən keçərək şəhərə istiqamət götürmüşdü.

Azərbaycan Ordusu noyabrın 4-də güclü zərbə ilə düşmənin mövqeyini qətiyyətlə qıraraq Çanaqçı kəndini işğaldan azad edib böyük strateji əhəmiyyəti olan Şuşa-Laçın yolunun bir hissəsinə nəzarəti ələ keçirdi. Noyabrın 6-da yüngül silah-sursatla təchiz edilmiş xüsusi təyinatlı qüvvələr kəndirlərlə Şuşanın sıldırımlarına dırmaşaraq səhər saatlarında dörd tərəfdən şəhərə daxil oldular. Dərhal qəsbkarlarla döyüşə başladılar. Erməni işğalçılarını illərdən bəri möhkəmləndikləri şəhərdən tam sıxışdırıb çıxardılar.

Güclü zərbə ilə geri sıxışdırılan erməni qəsbkarları itirdiyi mövqelərə qayıtmaq məqsədilə yenidən Şuşa üzərinə hücuma keçməyə cəhd göstərdilər. Amma şanlı Azərbaycan Ordusunun ciddi müqaviməti nəticəsində erməni qəsbkarları geri oturduldu. Ağır məğlubiyyətə uğrayan düşmən bundan sonra bir daha özündə güc tapıb hücuma keçə bilmədi. İşğalçılıq niyyətindən əl çəkməyən ermənilər noyabrın 7-də Ermənistan tərəfindən Şuşaya qadağan olunmuş İsgəndər-M ballistik raketləri atdılar. Amma bununla da döyüşün taleyini dəyişə bilmədilər. Mədəniyyət beşiyimizin erməni işğalından azad olunması İkinci Qarabağ müharibəsinin taleyini birdəfəlik həll etdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də and yerimiz olan Şəhidlər xiyabanından xalqımıza Şuşanın azad edilməsi müjdəsini vermişdir. Prezident xalqa müraciətində demişdir: "Şuşa 28 il yarım işğal altında idi. Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir... Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır".

Şuşada qazanılmış böyük zəfər kimin güclü və haqlı olduğunu bir daha dünyaya göstərdi. Ertəsi gün Azərbaycan Ordusunun Qarabağda 70-dən çox kəndi azad etdiyi barədə xəbər yayıldı. Həmin döyüşlər zamanı Ermənistan ordusu diz çökdürüldü.

Vətən müharibəsinin davam etdiyi günlərdə həyatımızın ən şərəfli çağlarını yaşadıq. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu qazandığı zəfərləri ilə xalqımıza böyük sevinc yaşatdı.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Ölməzliyə qovuşanlar

# Vətən sevgisi onu şəhidlik zirvəsinə yüksəltdi

**Yurdu erməni qəsbkarlarının işğalına məruz qalanda o, hələ çox kiçik idi. 1991-ci il mayın 16-da Laçın rayonunun Dəyhan kəndində dünyaya gələn Elgün Abbaslının o vaxt bir yaşı vardı. Dünyanın ən gözəl yerlərindən biri olan Laçının mərd, igid övladları düşmənə müqavimət göstərsələr də, havadarlarından hər cür yardım alaraq silahlanmış ermənilər Azərbaycanın əzəli torpaqlarını, qədim yurdlarını ələ keçirdilər.**



1992-ci ilin mayında Laçın təcavüzkar ermənilər tərəfindən işğal olundu. O zaman balaca Elgün ailəsi ilə birlikdə məcburi köçkün kimi Sumqayıt şəhərinə gəlib, Sarıqaya qəsəbəsində məskunlaşdılar.

Elgün evin kiçiyi, iki qardaşın balacası idi. Onlar hələ uşaq olduqları üçün bu ayrılığın nə qədər ağır olduğunu, onları çətin günlərin gözlədiyini dərk etmirdilər. Ailənin böyükləri isə isti ocaqlarını, dədə-baba yurdlarını tərk etmək məcburiyyətində qalanda bu ayrılığın çox uzun çəkəcəyini güman etmirdilər. Ancaq onlar məcburi köçkün kimi otuz ilə yaxın Sumqayıtda Sarıqaya qəsəbəsində yaşamalı oldular...

O vaxtdan Ermənistanın işğalı nəticəsində ayrı düşdükləri Laçın rayonunun Dəyhan kəndini, orda qalan evlərini arzulamadan, pərən-pərən düşmüş yurddaşlarını düşünmədən keçən bir günləri belə olmadı. Elgüngil də bu nisgillə böyüdülər. Yəqin ki, Elgün Abbaslının uşaq yaşlarından hərbçi peşəsinə marağının böyük olmasında bu həsrət, doğma yurdunu azad, Vətənini bütöv görmək arzusu başlıca səbəb idi.

Elgün orta məktəbi başa vurduqdan sonra əsgəri xidmətə yollandı. Qəlbindəki vətənpərvərlik duyğuları onu hərbçi olmağa istiqamətləndirdi. O, hərbi xidmət müddəti bitdikdən sonra, 2014-cü ildə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu oldu. Elgün Abbaslı hərbi xidmətini davam etdirdi. Pirəkəşküldə yerləşən hərbi hissədə, tibb bölüyündə qulluq etdi.

İşğalçı Ermənistanın silahlı qüvvələrinin növbəti təxribatı 2020-ci il, sentyabrın 27-də müharibənin başlanması ilə nəticələndi. Azərbaycan Silahlı Qüvvələrinin MAHHXHQ əsgəri olan Elgün Abbaslı da Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərinin azadlığı uğrunda gedən ağır döyüşlərdə iştirak etdi.

İkinci Qarabağ müharibəsində ağır döyüşlərin davam etdiyi günlərdə Ermənistan silahlı qüvvələri yenə də öz məkrlərini göstərirdilər. Müharibənin qaydalarına riayət etməyən düşmən təcili tibbi yardım maşınını da atəşə tuturdu. MAHHXHQ əsgər Elgün Abbaslı Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Laçının azadlığı uğrunda gedən döyüşlərdə vuruşdu, yaralıları döyüş meydanından çıxardı. Elgün noyabr ayının əvvəllərindən başlayan Şuşa döyüşlərində də şücaətlə iştirak etdi. Onun içərisində olduğu maşın 2020-ci il noyabrın 10-da Şuşa istiqamətində Ermənistanın silahlı qüvvələrinin bölmələri tərəfindən atəşə tutuldu. Əsgər Elgün Abbaslı yaralansa da, geri çəkilmədi. Elgün şəhid olmuş komandirinin nəşini ərazidən çıxararkən özü də şəhidlik zirvəsinə ucaldı. Sumqayıt Şəhidlər xiyabanında dəfn olundu.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, əzəli torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarında igidlik, şücaət göstərmiş Elgün Ağayar oğlu Abbaslı ölümündən sonra Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olundu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Yurda qayıdış

# "Ata-baba ocağındayam"



**Geniş quruculuq və bərpa işləri aparılan Qarabağ xoş günlərini yaşayır. 32 il əvvəl doğma ocaqlarından göz yaşı içində didərgin düşmüş insanlar bu günlər böyük sevinclə geri qayıdırlar. Başqa bölgələrimiz kimi, artıq şuşalıların da öz şəhərlərinə dönüşü başlayıb. Onlardan biri də Şuşada doğulub boya-başa çatmış və illərdən bəri ata-baba yurdunun gözəlliyini tablolara köçürmüş tanınmış rəssam Rövşən Bayramovdur.**

Mayın 10-dan doğma ocağına qayıtmış R.Bayramov keçirdiyi sevinc hisslərini bizimlə bölüşərək dedi:

- Bu gün ömrümün xoş günlərini yaşayıram. Bizə bu xoşbəxtliyi nəsib etdiyinə görə Prezident İlham Əliyevə minnətdaram. Otuz iki il idi ki, ata-baba yurdumdan qaçqın düşmüşdüm. Bakı şəhərində məskunlaşandan sonra Şuşanın gözəlliyini rəsmlərə köçürürdüm. Bu günə qədər 150 rəsm əsəri çəkmişəm. Qaçqınlıq həyatı yaşadığım vaxtlarda xarici ölkələrdə də Şuşa mövzusunda sərgilər təşkil etmişəm. Harada olmuşamsa, mənim mövzum Şuşa, onun gözəlliyi olub.

Şükürlər olsun ki, artıq doğma ocağımdayam, Şuşadayam. Həyatımın ən gözəl, unudulmaz çağlarını yaşayıram. Bir vaxtlar xəyal edib çəkdiyim gözəl, bənzərsiz mənzərələrlə üz-üzəyəm. İndi bu mənzərələri xəyalən deyil, canlı-canlı gözlərimlə görüb tablolara köçürəcəyəm, yeni-yeni əsərlər yaradacağam. İnanıram ki, yeni əsərlərim daha canlı, daha gözəl olacaq, tamaşaçı zövqünü oxşayacaq. Uzun illər idi ki, bu günü, bu anı gözləyirdim. Xatırlayıram ki, Vətən müharibəsinin davam etdiyi günlərdə Prezident İlham Əliyevin televiziyadakı çıxışlarını dərin maraqla izləyirdim. Ali Baş Komandanın dilindən Şuşanın azad olunması xəbərini eşitməyi həsrətlə gözləyirdim. Nəhayət, illərdən bəri intizarında olduğum xəbəri eşitdim. Həmin dəqiqələrdə eskiz çəkirdim. Tez əlimdəki fırçanı kənara tullayaraq sevinc içində: "Uurraa, Şuşaya qayıdacağıq", - dedim. Artıq arzularımıza çatmışıq, Şuşaya qayıtmışıq.

Mayın 10-da Şuşaya səfər edən Prezident İlham Əliyev başqa şuşalılar kimi mənə də evimin açarlarını təqdim etdi. Təqdimat zamanı söz verdim ki, doğma məkanımda böyük sərgi açacağam və bu sərgidə Şuşanı canlı-canlı görüb təsvir etdiyim əsərlər yer alacaq. Verdiyim sözə əməl edərək hazırda yeni əsərlər üzərində işləyirəm.

İnanırıq ki, rəssam Rövşən Bayramovun fırçasından çıxacaq yeni əsərlərdən zəfər qoxusu gələcək. Zəfər qoxulu əsərlər isə onun sərgisinə gələnlərin zövqünü oxşayacaq.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Musiqi inciləri

## "Mirzəyi" rəqsi

Bu rəqs Şuşada ney çalan Mirzə adlı bir nəfər tərəfindən təxminən XIX əsrin ikinci yarısında yaradılmışdır. Müəllif rəqsə öz adını vermişdir. Bütün məşhur rəqqasların və rəqqasələrin repertuarına daxil edilən bu havanı həm kişilər, həm də qadınlar ifa edirlər. Gözəl, nəcib və qəlb oxşayan melodiyanın müşayiətilə əli dəsmallı kişilər təmkinlə, qadınlar isə ağır templə kövrək hərəkətlərlə rəqsi tamamlayırlar. "Mirzəyi"nin "Vağzalı-Mirzəyi" variantı daha geniş yayılmışdır.

Müəllif rəqsin melodiyasını ney alətində yaratsa da, tar və kamança ifasında da gözəl səslənir. Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" operettasında dördüncü məclisdə, toy səhnəsində Məşədi İbad bu rəqsi şabaş yığa-yığa ifa edir.

## "Misri"

Şuşada yaranmış rəqslərdən biri də "Misri" havasıdır. Koroğlunun qılıncının adından götürülmüşdür. Rəqsdən çox marşabənzər ahəngli instrumental aşıq melodiyasına oxşayır. Vətənpərvər ruhlu bu rəqs sədaları altında pəhləvanlar güləşqabağı "Misri"nin musiqisi altında rəqs edirdilər.

"Misri" rəqs kimi daha geniş yayılmışdır. Burada gərgin, məğrur, bir qədər də çətin hərəkətlər icra olunur. Melodiyanın tempi cəld və sürətlidir. Adətən, zurnaçılar dəstəsi tərəfindən ifa olunur və zərb alətinin çox gur ritminin sədaları eşidilir. Musiqi ölçüsü 1/4, tempi cəld, məqam əsası "Bayatı-Şiraz"dır.

## "Darçını"

"Darçını" xalq rəqsinin də yaranma məkanı Şuşadır. Rəqsin melodiyası gümrahdır və yumoristik xarakter daşıyır. Aram tempdə səslənir, qüvvətli səsində zərblərin və vurğuların səsi aydın eşidilir. Məqam əsası "Rast", musiqi ölçüsü 6/8, tempi isə mülayimdir. Üzeyir bəy Hacıbəyli "O olmasın, bu olsun" operettasında "Darçını" rəqs melodiyasından istifadə etmişdir.

# Yay mövsümü teatrsevərlər üçün maraqlı keçəcək



Şuşa Dövlət Musiqili Dram Teatrı yay mövsümünə ciddi hazırlaşır. Teatr iyun ayında tamaşaçılar qarşısında maraqlı və rəngarəng repertuarla çıxış edəcək. Azyaşlı tamaşaçıların maraqlarını da nəzərə alan kollektiv teatrsevərlərə "Cırtdanın nağılı", "Lənkaran xanının vəziri", "Karlsonun macəraları", "Bəla", "Ana", "Tənbəl dovşan", "Dovşanın ad günü", "Solğun çiçəklər", "Qırmızı papaq", "Nağıllar aləmində" və "Boy çiçəyi" tamaşalarını təqdim edəcək.

*"Azərbaycan"*

● Yaddaş

# Çar ordusunun şuşalı sərkərdəsi

## İmperatorun şəxsi mühafizəçisi olan Fərəc bəy Ağayev Qafqaz Əlahiddə Ordusunda general-leytenant rütbəsinə qədər yüksəlib

**Şuşa nəinki ölkəmizdə, bütün dünyada tanınan elm dühaları, ədəbiyyat və incəsənət xadimləri, sənətkarları ilə yanaşı, həm də peşəkar hərbçilərin vətənidir. Qala-şəhərimizin əsrarəngiz təbiəti, qranit relyefi, kristal havası, minerallarla dolu suyu şairlərə, bəstəkarlara ilham, musiqiçilərə səs, alimlərə zehin açıqlığı, ustalara unikal sənət qabiliyyəti verdiyi kimi, hərb elminə üz tutanları da fiziki cəhətdən möhkəmləndirib, nəzəri-praktiki, taktiki nöqteyi-nəzərdən yetişdirib. İstər çar ordusu, istər keçmiş SSRİ silahlı qüvvələri, istərsə də Milli Ordumuzda şuşalı zabit və əsgərlərin mərdliyi, hərbi anda sadiqliyi, rəşadəti barədə çox yazılıb.**



Fərəc bəy Ağayev haqqında ilk məlumata "Kavkaz" qəzetinin 1891-ci il 8 dekabr tarixli sayında və "Kavkazski kalendar" məcmuəsinin 1873-1874-cü illər buraxılışlarında rast gəlinir. Həmin arayışda "Fərəc bəy" kimi göstərilən eloğlumuz həm də "Nikolay Nikolayeviç Ağayev" adlandırılır. Bəs fotoları altında "Tatarskiy bey" yazılan Fərəc Ağayev kimdir və nə üçün Nikolay Nikolayeviç kimi təqdim olunur?

Bunu aydınlaşdırmaq üçün yazıçı-jurnalist Şəmistan Nəzirlinin mötəbər arxiv sənədləri əsasında yazdığı "Azərbaycan generalları" kitabındakı tarixi faktlar köməyimizə çatdı. Kitabda yer alan "Tarixdə iz qoyub qəhrəmanlarım" məqaləsində oxuyuruq ki, təbiətən çox ciddi, nizam-intizamlı, hündürboylu, mavigözlü "tatar balası" xidmətinin yeddinci ili ən yaxşı qvardiya rotmistri kimi Peterburqda çarın xüsusi qvardiya kazak polkunda leyb-qvardiya komandiri vəzifəsinə təyin olunur. Hər şey də bu təyinatdan sonra baş verir. Çoxlarının qibtə edəcəyi "xoşbəxt tale" Fərəc bəyi ömrü boyu vətənindən, doğmalarından, əzizlərindən uzaq salır. Gənc komandir intellektual davranışı, qeyri-adi hərbi qabiliyyəti, yaraşığı ilə tez bir zamanda I Nikolay və onun arvadının diqqətini çəkir. Onlar 1844-cü ildə bu igid qafqazlı zabiti oğulluğa qəbul edirlər. Bundan sonra F.Ağayev dönüb olur Nikolay Nikolayeviç. Uzun müddət Peterburqda Rusiya imperatorunun şəxsi mühafizəçisi olan Fərəc bəy rus qızı Mariya Fyodorovna ilə ailə qurur.

Ş.Nəzirli yazırdı: "1999-cu ilin aprel-may aylarında Gürcüstan Mərkəzi Dövlət Arxivində xalqımızın hərbçi oğulları haqqında araşdırmalar apararkən indiyədək bizə məlum olmayan çoxlu sayda fotoşəkil və rəsmi sənədlər əldə edə bildim. 1850-1855-ci illərdə Dmitri Yermakov soyadlı bir fotoqraf Qafqazın müxtəlif bölgələrini gəzmiş, ötən əsrin görkəmli adamlarının şəklini çəkmişdi. Fotoalbomda bir şəkil diqqətimi cəlb etdi. Orada təxminən 40-45 yaşında cavan zabit təsvir olunmuşdu. Qalınbığlı, iri alınlı, mavigözlü zabitin qurşağında naxışlı xəncər bağlanmışdı. Ağayana oturuşunda bəy vüqarı vardı. Sanki dilə gəlib "mən azərbaycanlıyam!" deyirdi. Şəkildəki şəxsin kimliyini fondda saxlanan ad göstəricisindən öyrənə bildim: "2899 və 8215 saylı fotoşəkillərdə general-leytenant Fərəc bəy Ağayev təsvir olunmuşdur". Bir ay üçgünlük yaradıcılıq ezamiyyətimdə həmin anlardakı qədər sevinməmişdim. Necə sevinməyəydim, yüz səksən səkkiz il əvvəl anadan olmuş, yüz on bir il bundan əvvəl vəfat etmiş general soydaşımızın fotoşəklini indiyədək Azərbaycanda görən olmamışdı…"

Burada maraqlı faktlardan biri də ondan ibarətdir ki, F.Ağayev milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin atası Səlim bəyin doğma dayısıdır.

F.Ağayev 1811-ci ildə Şuşada adlı-sanlı, təhsilli bəy ailəsində dünyaya gəlib. Uşaq vaxtından hərbçi olmaq arzusu ilə ilk hərbi təhsilini Tiflis kadet korpusunda alıb. 1837-ci ildə isə Qafqaz Əlahiddə Ordusunda müsəlman süvari polkunda xidmətə başlayıb. 1850-ci ilə kimi şimal paytaxtında qüsursuz xidmət edərək polkovnik rütbəsində Əlahiddə Qafqaz Ordusunun sərəncamına göndərilib. 1853-1956-cı illərdə bacarıqlı sərkərdəlik qabiliyyəti və fəaliyyətinə görə general-mayor rütbəsinə layiq görülüb. Birinci dərəcəli "Müqəddəs Anna" ordeni və daha bir neçə orden və medallarla təltiflənib. Ömrünün 40 ilindən çoxunu rus imperiyasının ordusunda xidmət edən soydaşımız 1882-ci ildə general-leytenant rütbəsi ilə istefaya çıxaraq Tiflisdəki Xeyriyyə Cəmiyyətində çalışıb. Fərəc bəy 1891-ci ildə 80 yaşında dünyasını dəyişib və öz vəsiyyətinə görə elə orada da müsəlman adəti ilə dəfn edilib.

*Qurban MƏMMƏDOV*

# Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, müştərilərə təklif olunan xidmət və tariflərin optimallaşdırılması, abunəçilərə daha rahat istifadə imkanının təmin edilməsi məqsədi ilə 1 iyul 2024-cü il tarixindən etibarən, fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulmuş ödəniş (danışıq) kartlarının nominalına uyğun olaraq istifadə müddəti aşağıdakı kimi tətbiq ediləcək:

| Kartın nominalı (AZN ilə) | İstifadə müddəti (təqvim günü) |
|---|---|
| 1 | 5 |
| 2 | 10 |
| 3 | 20 |
| 5 | 30 |
| 10 | 60 |
| 25 | 90 |
| 50 | 120 |
| 100 | 120 |

Bütün nominallı (1, 2, 3, 5, 10, 25, 50 və 100 AZN) ödəmə (danışıq) kartlarında yeni ödəmə kartı yükləmə müddəti ödəmə kartlarının nominalından asılı olaraq müəyyən edilən kartın istifadə müddəti + 180 gün kimi saxlanılır. Beləliklə də, abunəçi bu müddət ərzində yeni ödəmə kartı yükləyib istifadə imkanını yeni müddətə artırmaqla, eyni zamanda həmin yeni müddət bitənədək həm daha əvvəl yüklənmiş və istifadə edilməmiş məbləğlərdən, həm də yeni yüklədiyi ödəmə kartının məbləğindən istifadə imkanına malik olacaq.

Göstərilənlər ilə yanaşı, fakturasız (SimSim) xətt sisteminə aid nömrələrin balasına elektron ödəniş üsulları ilə sərbəst seçilən nominalda pul vəsaitinin yüklənməsi imkanı təmin edilir. Fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulmuş 1, 2, 3, 5, 10, 25, 50 və 100 AZN nominallarının əvəzinə, elektron ödəniş üsulları vasitəsi ilə həyata keçirilən ödənişlərə görə aşağıdakı cədvəldə göstərilən aralıqda məbləğlər və müvafiq istifadə müddətləri təyin edilir:

| Ödəniş məbləğinin aralığı | İstifadə müddəti (təqvim günü) |
|---|---|
| 1 AZN-dən - 1,99AZN-dək | 5 |
| 2 AZN-dən - 2,99 AZN-dək | 10 |
| 3 AZN-dən - 4,99 AZN-dək | 20 |
| 5 AZN-dən - 9,99 AZN-dək | 30 |
| 10 AZN-dən - 19,99 AZN-dək | 60 |
| 20 AZN-dən - 24,99 AZN-dək | 90 |
| 25 AZN-dən - 49,99 AZN-dək | 90 |
| 50 AZN-dən - 99,99 AZN-dək | 120 |

Elektron ödəniş üsulları vasitəsi ilə ödəniş üçün daxil edilən məbləğin minimal həddi 1 AZN təşkil edir.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" qəzetinə 2024-cü il üçün abunə yazılışı davam edir!

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
Kapital daha çox bərpa-quruculuq işlərinə yönəldilir
"Minaların ətraf mühitə təsirinin azaldılması - Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda beynəlxalq konfransın iştirakçılarına
Bu gün regionda şərtləri qalib Azərbaycan diktə edir
Aleksandr Stubb İlham Əliyevə zəng edib
Şuşaya qayıdanların sayı 400 nəfəri ötdü

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

# "Bakıxanov Trikotaj" ASC-nin səhmdarlarının nəzərinə

"Səhmdar Cəmiyyəti haqqında" Azərbaycan Respublikası qanununa müvafiq olaraq "Bakıxanov Trikotaj" ASC səhmdarlarını 12 iyun 2024-cü il tarixdə saat 11:00-da növbəti yığıncağa dəvət edir.

Yığıncaqda aşağıdakı məsələlərə baxılacaq.

1. 2023-cü il üzrə mühasibat balansının və hesabatların təsdiq edilməsi.
2. Cari məsələlər.

**Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Yavər Əliyev, 26**
**Əlaqə telefonu: (012) 425-23-22**

***"Bakıxanov Trikotaj" ASC***

# "Sabunçu Tikinti-Quraşdırma" Qapalı Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 107-1.7-107-1.8-ci maddələrini rəhbər tutaraq səhmdarları "Sabunçu Tikinti-Quraşdırma" Qapalı Səhmdar Cəmiyyətinin ümumi yığıncağına dəvət edirik.

Səhmdarların ümumi yığıncağı 28 iyun 2024-cü il saat 16:00-da Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov ŞTQ, Bünyadov qəsəbəsi (Bakıxanov QƏS.) ev 11 ünvanında keçiriləcəkdir.

Səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olunma qaydası - məsələ qanunvericiliyə əsasən icra olunduğu üçün hər hansı bir əlavə sənəd mövcud deyil.

***QSC-nin İdarə Heyəti***

# Donald Tramp bütün ittihamlar üzrə təqsirli bilinib

## Lakin həbs hökmü çıxarılsa belə o, prezident seçkilərində iştirak edəcək

**ABŞ-nin keçmiş prezidenti Donald Tramp ona qarşı irəli sürülmüş ittihamlarla bağlı təqsirli bilinib. Nyu York Məhkəməsində hakim heyəti ABŞ tarixində ilk dəfə ölkənin sabiq prezidentinin cinayət işi üzrə təqsirli olmasına dair hökm çıxarıb. 12 nəfərdən ibarət andlılar məhkəməsi Trampı 34 bənd üzrə sənəd saxtalaşdırmaqda təqsirli bilib. Hər bir fakt üzrə 4 il azadlıqdan məhrumetmə cəzası çıxarıla bilər ki, bu da ümumilikdə 136 il edir.**



Donald Tramp 2016-cı il prezident seçkiləri ərəfəsində verdiyi rüşvəti seçicilərdən gizlətmək üçün maliyyə hesabatlarını saxtalaşdırmaqda ittiham olunur. Xatırladaq ki, cinayət işi ilə bağlı dinləmələr aprelin ortalarında başlayıb.

Yekun cəza iyulun 11-i keçiriləcək xüsusi iclasda hakim Xuan Merçan tərəfindən veriləcək.

Beləliklə, iclas iyulun 15-18-də Viskonsin ştatının Miluoki şəhərində keçiriləcək Respublikaçıların Milli Qurultayına dörd gün qalmış baş tutacaq. Orada Tramp Respublikaçılar Partiyasından prezidentliyə namizəd kimi rəsmən təsdiqlənməlidir.

ABŞ-nin keçmiş prezidentinə qarşı istintaqa səbəb 2018-ci ilin yanvarında "The Wall Street Journal" qəzetində işıq üzü görmüş məqalə olub. Yazıda bildirildiyinə görə, respublikaçı namizəd 2016-cı ildə prezident seçkilərində qalib gəlməzdən bir ay əvvəl onun vəkili Maykl Koen aktrisa Stormi Denielsə təxminən 10 il əvvəl Trampla münasibətləri barədə məlumat yaymaması üçün 130 min dollar ödəyib.

Lakin Tramp həbs olunsa belə bu, onun prezident seçkilərində iştirakına mane olmayacaq. "Fox News" telekanalı xəbər verir ki, ABŞ Konstitusiyasında prezidentliyə namizədlər üçün kriminal faktlara görə məhdudiyyətlər qoyulmadığından Donald Tramp məhkəmənin qərarından asılı olmayaraq, seçki kampaniyasını keçirə bilər.

ABŞ tarixində oxşar hadisə 104 il əvvəl qeydə alınıb. 1920-ci ildə hazırda fəaliyyət göstərməyən Amerika Sosialist Partiyasının prezidentliyə namizədi Yucin Debs Birləşmiş Ştatların Birinci Dünya müharibəsinə girməsinə qarşı çıxdığı üçün həbs edilmiş və seçki kampaniyasını federal həbsxanada aparmalı olmuşdu.

Respublikaçılar Partiyasından prezidentliyə namizədliyini irəli sürən Donald Tramp 2016-cı ildə seçki kampaniyası üçün topladığı vəsaitləri qanunsuz xərcləməkdə, sənədləri saxtalaşdırmaqda və aktrisa Stormi Denielsi "susdurmaq üçün" 130 min dollar ödəməkdə ittiham olunur. Onun aktrisaya pul verməsi qanun pozuntusu olmasa da, ödəniş məhkəmə xərcləri kimi sənədləşdirilib.

Xatırladaq ki, ABŞ-də növbəti prezident seçkiləri noyabrın 5-nə təyin olunub. Donald Tramp artıq Respublikaçılar Partiyasından prezidentliyə namizəd olmaq üçün lazımi miqdarda nümayəndə səsini toplayıb. İkinci müddətə namizədliyini irəli sürən Co Bayden isə Demokratlar Partiyasından kifayət qədər dəstək alıb.

***Rizvan HİLALOĞLU, "Azərbaycan"***

# İyunda yağıntıların bir qədər yüksək olacağı gözlənilir

İyun ayında yay fəslinin ilk ayı üçün xarakterik olan hava şəraiti və temperatur rejimi səciyyəvidir. Lakin bəzi günlərdə əsasən şimal və qərb ərazilərindən daxil olan siklonların təsiri nəticəsində hava şəraiti qeyri-sabit keçir. Həmin təsir temperatur şəraitində də özünü göstərir. Həmçinin əsasən dağlıq və dağətəyi rayonlarda yüksək temperatur fonunda formalaşan güclü konvektiv hava axınları qısamüddətli leysan yağışlara, ildırım-dolu prosesinin yaranmasına şərait yaradır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, iyun ayında ölkə ərazisində havanın orta aylıq temperaturunun və aylıq yağıntının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər yüksək olacağı gözlənilir. Aylıq yağıntının miqdarında da həmin tendensiyanın olacağı, yağıntının miqdarının iqlim normasına yaxın, bəzi ərazilərdə isə bir qədər çox olacağı ehtimal olunur.

Birinci ongünlüyün ilk günlərində şimal-qərb küləyinin güclənəcəyi, əsasən dağlıq və dağətəyi rayonlarda arabir yağıntılı keçəcəyi gözlənilir.

Bakıda və Abşeron yarımadasında havanın orta aylıq temperaturunun 23-25 dərəcə isti olacağı gözlənilir və bu, iqlim normasına yaxın və bir qədər yüksəkdir. Gecələr havanın temperaturu 19-24 dərəcə, gündüzlər 28-33 dərəcə, bəzi günlərdə isə 35-38 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı bildirilir (norma 9-12 mm).

# *Azərbaycan boksçusu:* "Paris Olimpiadasında tarix yazacağıma söz verirəm"

**"Paris Olimpiadasında tarix yazacağıma söz verirəm". AZƏRTAC xəbər verir ki, bu sözləri Tailandın paytaxtı Banqkokda keçirilən II Dünya Olimpiya Təsnifat Turnirində "Paris-2024" Yay Olimpiya Oyunlarına vəsiqə qazanan Azərbaycan boksçusu Malik Həsənov federasiyanın Mətbuat xidmətinə açıqlamasında deyib.**

O, nəticəyə görə xoşbəxt olduğunu bildirib: "Güclü rəqiblərlə qarşılaşsam da, hamısına qalib gəlməyi bacardım. Bura gəlmədən öncə söz vermişdim ki, Olimpiya Oyunlarına lisenziya qazanacağam. Bunu bacardım. Mənə dəstək olan hər kəsə təşəkkür edirəm".

Boksçu 1/4 finalda Xose Manuel Viafara (Kolumbiya) ilə qarşılaşıb. Rəqibini 3:2 hesabı ilə məğlub edən Həsənov yarımfinala yüksəlməklə yanaşı, Olimpiadaya lisenziyanı da rəsmiləşdirib. Bu, boks üzrə Azərbaycan millisinin "Paris-2024"ə əldə etdiyi 4-cü vəsiqə olub. Malik Həsənovadək Nicat Hüseynov (51 kiloqram), Murad Allahverdiyev (80 kiloqram) və Məhəmməd Abdullayev (+92 kiloqram) də eyni nailiyyətə imza atıb.

Qeyd edək ki, Banqkokdakı yarış iyunun 2-də bitəcək. Azərbaycan boksçularından Şamil Əsgərov (57 kiloqram), Alfonso Dominqes (92 kiloqram) və Zeynəb Rəhimova (54 kiloqram) da lisenziya uğrunda mübarizəni davam etdirirlər.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi Sabirabad rayon prokuroru Fəxrəddin Pənahova bacısı
**GÜLƏR XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Umud Rəhimoğlu, Mobil, Mehman, Rafiq və Arif Hüseynovlar, Əlövsət Əliyev, Fazil Allahverdiyev, İlham İbrahimov, Sənan Əlizadə və İlham Həsənov Bəxtiyar Təhməzova anası
**TƏYYUBƏ İSRAFİL QIZI TƏHMƏZOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Yeni Azərbaycan Partiyasının Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşova qardaşı
**ƏHMƏD BALAQADAŞOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Yeni Azərbaycan Partiyasının Xaçmaz rayon təşkilatının sədri Məhəmməd Balaqadaşova qardaşı
**ƏHMƏD BALAQADAŞOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

BDU-nun Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin kollektivi Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müəllimi Sevinc Misirxanovaya əzizi
**XURAMAN ƏLİYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağamirzə Dünyamalıyev, Samir Məmmədov, Məhəmməd Quliyev, Cavanşir Mustafayev və Məhəmməd Rəfiyev Bəxtiyar Təhməzova anası
**TƏYYUBƏ İSRAFİL QIZI TƏHMƏZOVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru






www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4406**
**Sifariş 1178**

**Qiyməti 60 qəpik**